NORM



# DAYANIQLI İNKİŞAF HAQQINDA HESABAT

## 2020



NORM



# MÜNDƏRİCAT


01 **Baş İcraçı Direktorun müraciəti** **6**

02 **Hesabat haqqında** **9**

2.1. Hesabatın profili 9
2.2. Maraqlı tərəflərin cəlb edilməsi 9
2.3. Əhəmiyyətli aspektlərin qiymətləndirilməsi

03 **Şirkətin profili** **14**

3.1. İl ərzində baş vermiş önəmli hadisələr 14
3.2. Şirkət haqqında 14
3.3. Dəyər zənciri 16

04 **Dayanıqlı inkişaf yanaşması** **19**

4.1. İdarəetmə strukturu 19
4.2. Məramımız, missiyamız və dəyərlərimiz 20
4.3. BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə töhfəmiz 21
4.4. Məqsədlər və xüsusi təşkilati hədəflər 21

05 **İdarəetmə, etika və uyğunluq** **25**

5.1. Korporativ idarəetmə 25
5.1.1. İdarə heyəti 25
5.1.2. İdarəetmə Komitələri 26
5.1.3. Dürüstlük 27
5.1.4. İnsan Haqlarının idarə edilməsi 27
5.1.5. Şəffaflıq 28
5.1.6. Qaydalara uyğunluq 28
5.1.7. Risklərin və imkanların idarə edilməsi 28

06 **İqtisadi fəaliyyət** **31**

07 **İnsan resurslarımız** **34**

7.1. İşçilərin fəaliyyətinin və biliklərinin idarə edilməsi 34
7.2. İşçilərin inkişafı 35
7.3. Kompensasiyalar və müavinətlər 36
7.4. İşçilərin iş yerindən məmnunluğu 37
7.5. Müxtəliflik və inklüzivlik 37

08 **Cəmiyyətə dəstək** **41**

8.1. Cəmiyyətin inkişafı üçün ayrılmış sərmayələr 41
8.2. Ustalar klubu 43
8.2.1. 2020-ci ildə klubun fəaliyyəti 44
8.2.2. Rəqəmsallaşdırma


# MÜNDƏRİCAT


09 **Norm-da təhlükəsizlik** **47**

9.1. Əməyin təhlükəsizliyi mədəniyyəti 47
9.2. İş yerində sağlamlıq və əməyin təhlükəsizliyi təlimləri 48
9.3. Əməyin təhlükəsizliyinin idarə edilməsi 48
9.4. Peşə sağlamlığı və əməyin təhlükəsizliyi risklərinin idarə edilməsi 49
9.5. Pandemiya zamanı təhlükəsizlik tədbirləri 49

10 **Ətraf mühitin idarə olunması** **53**

10.1. İqlimə təsir 55
10.2. Atmosfer çirkləndiriciləri 56
10.3. Su istehlakı 57
10.4. Tullantıların idarə edilməsi 58
10.5. Torpaq və biomüxtəliflik 59

11 **Məsuliyyətli istehsal** **61**

11.1. Müştəriyə qayğı 62
11.2. Tədqiqat və inkişaf 63
11.3. Materialların istifadəsi və dairəvi iqtisadiyyat 63
11.4. Keyfiyyətə zəmanət 65

12 **Təchizat zənciri** **68**

12.1. Təchizatçıların idarə edilməsi 68
12.2. Təchizatçı seçimi 69

13 **Fəaliyyət cədvəlləri** **73**

13.1. Şirkət haqqında 73
13.2. Maliyyə nəticələri 73
13.3. İnsan resurslarımız 74
13.4. Sağlamlıq və təhlükəsizlik 75
13.5. Ətraf mühit 76
13.6. Məsuliyyətli istehsal 77
13.7. Təchizat zənciri 77

14 **Metodologiya və fərziyyələr** **79**

14.1. Məlumatların toplanması və təqdim olunması üçün istifadə edilmiş metodologiya 79
14.1.1. Ətraf mühit sahəsində fəaliyyət göstəriciləri 79
14.1.2. Sosial göstəricilər 80
14.1.3. İqtisadi göstəricilər 80
14.2. GRI indeksi 81
14.3. Müstəqil əminlik hesabatı 87

# 1. BAŞ İCRAÇI DİREKTORUN MÜRACİƏTİ



Dayanıqlılıq və biznesin davamlılığı bizim böyümə strategiyamızın vacib hissəsidir. Qürurla demək olar ki, ortaya çıxan risklərə və problemlərə baxmayaraq 2020-ci il biznes uğurlarımızın davam etdiyi və fəaliyyət həcminin genişləndiyi bir il oldu. COVID-19 pandemiyasından əvvəl dayanıqlılıq prinsiplərini və şəffaflığı öz biznes fəaliyyətinə strateji qaydada inteqrasiya etmiş bir şirkət olaraq, pandemiyanın yaratdığı böhrana qarşı lazımi dayanıqlılığı və möhkəmliyi nümayiş etdirdik. Bu il fəaliyyətimiz nəinki ləngidi, əksinə şirkətimiz işçilərin sağlamlığını və ətraf mühiti qorumağa müvəffəq olmaqla yanaşı, inkişaf göstəricilərini də yüksəltdi. Bu il prioritetimiz işçilərimizin, podratçılarımızın və digər maraqlı tərəflərin sağlamlığı və təhlükəsizliyi olmuşdur. Xəstəliyin gedişini izləmək və minimuma endirmək üçün yeni siyasətlər tətbiq etdik və lazımi addımlar atdıq, gigiyena tədbirlərini əhəmiyyətli dərəcədə artırdıq, məlumatlandırma sessiyaları keçirdik, sosial məsafənin gözlənilməsini və COVID-19 virusuna yoluxma şübhəsi olduqda ödənişli xəstəlik məzuniyyətini təşviq etdik. Pandemiyanın psixoloji təsirlərini və qeyri-müəyyənlikləri nəzərə alaraq, onların insanlar üzərindəki təsirlərinə daha çox diqqət yetiririk. Buna görə də, mövcud çətin dövrdə insanlarımıza kömək etmək üçün psixoloji sağlamlıq və rifah kampaniyalarını xüsusilə vurğuladıq. Əlavə tədbirlər olaraq, Hökümət tərəfindən həyata keçirilən vaksinasiya prosesini dəstəkləyəcəyik və artıq 2021-ci il üçün Norm-un işçiləri üzrə 80% vaksinasiya hədəfi qoymuşuq.

Mövcud qlobal dəyişikliklər bazar mənzərəsini formalaşdırdı və tələbdə yeni dəyişikliklərlə nəticələndi. Bu ehtiyacları uğurla kəşf edərək mövcud nümunələrdən bəhrələndik və çevik biznes əməliyyatlarımızı buna uyğun tənzimlədik. 2020-ci ildə şirkətimiz birisi yeni olmaqla bazara altı növ sement məhsulu təqdim etdi və nəticədə əvvəlki ilə nisbətən istehsalda 4% artım və xalis gəlirdə 5% artım əldə etdi. İstehsal gücünü artırmaq üçün yeni çoxkameralı silosu istismara verdik və ikinci paletləşdirmə xətti quraşdırdıq. Paletləmə xəttinin alman tərəfdaşımız “BEUMER Group” ilə birlikdə tamamilə uzaqdan istismara verilməsi mükəmməl texniki və kadr resurslarına malik olmağımızın sübutudur. İnanırıq ki, yeni sərmayə qoyuluşları əməliyyat səmərəliliyinin artması, proseslərin avtomatlaşdırılması və bununla da tədarük müddətləri və məhsulun son istehlakçılara çatdırılma müddətlərinin qısalması ilə nəticələnəcəkdir. Fəaliyyətlərimiz genişləndikcə iddialı planları həyata keçirmək hədəflərimiz də artır.





# 1. BAŞ İCRAÇI DİREKTORUN MÜRACİƏTİ

Hazırda 2021-ci ildə yerli bazara yeni bir məhsul – quyu-tamponaj sementini təqdim etmək məqsədilə Amerika Neft İnstitutunun API Spec Q1 sertifikatını almaq üçün lazımi yoxlamaları həyata keçiririk. Bu müddət ərzində problemlərin əhatəli, güclü və dayanıqlı inkişaf hədəflərinə çevrilməsi fürsəti təqdim edən dayanıqlılığın vacibliyinə bir daha əmin olduq. Ekoloji dayanıqlılığın idarə olunması sahəsində qabaqcıl olmaq ambisiyalarımızı və standartlarımızı yüksəltməyə davam edirik. Məsələn, cari hesabat ili ərzində məhsullarımızdakı klinker faktorunu azaltmaq təşəbbüslərimiz sayəsində spesifik birbaşa $CO_2$ emissiyalarını keçən ilə nisbətən azaltmağa müvəffəq olduq. Ətraf mühitə olan bağlılığımızın bir hissəsi olaraq su sayğacları quraşdıraraq su istehlakına dair hesabat sistemini inkişaf etdirdik. Təhlükəli və təhlükəli olmayan tullantılarımızı çeşidləməyə, saxlamağa, zərərsizləşdirmə və təkrar emal üçün üçüncü şəxsə ötürməyə davam edirik. Beləliklə, 2020-ci ildə bir daha ISO 14001 Ətraf Mühitin İdarə Olunması standartı əsasında sertifikata layiq görüldük. Bütün bunlar rəhbərliyimiz tərəfindən fəaliyyətimizin ekoloji təsirlərinin azaldılmasına yönəldilmiş diqqəti vurğulayır. tapmaqda qərarlıyıq. Bu mənada analoqlar və digər müəssisələr arasında ortaq dəyərlər yaratmaq üçün $CO_2$ emissiyalarının azaldılması və dairəvi iqtisadiyyatın asanlaşdırılması istiqamətində həlledici irəliləyişə nail olmaq üçün yeniliklərə daha çox diqqət ayırmaqla Azərbaycanda ən qabaqcıl təcrübələri qarşılıqlı olaraq bölüşəbiləcəyimiz bir Sement Birliyi yaratmaq ideyasını dəstəkləyirik. Yaxın gələcəkdə fəaliyyətlərimizdə alternativ yanacaq, xammal və digər alternativ enerjinin istifadəsi üçün əlverişli həllər tapmaq məqsədi ilə müxtəlif tərəflərlə araşdırmaları və işbirliyimizi davam etdiririk.

Bununla yanaşı, tərəfdaşlarımız, rəqiblərimiz, tədarükçülərimiz və digər əsas maraqlı tərəflərimiz ilə birlikdə iqlim dəyişikliklərini və təbiətə vurulan zərərləri minimuma endirmək, insan haqlarını qorumaq və dairəvi iqtisadiyyata töhfə vermək üçün birgə səylər göstərərək daha yaxşı həll yolları tapmaqda qərarlıyıq. Bu mənada analoqlar və digər müəssisələr arasında ortaq dəyərlər yaratmaq üçün $CO_2$ emissiyalarının azaldılması və dairəvi iqtisadiyyatın asanlaşdırılması istiqamətində həlledici irəliləyişə nail olmaq üçün yeniliklərə daha çox diqqət ayırmaqla Azərbaycanda ən qabaqcıl təcrübələri qarşılıqlı olaraq bölüşəbiləcəyimiz bir Sement Birliyi yaratmaq ideyasını dəstəkləyirik. Yaxın gələcəkdə fəaliyyətlərimizdə alternativ yanacaq, xammal və digər alternativ enerjinin istifadəsi üçün əlverişli həllər tapmaq məqsədiləmüxtəlif tərəflərlə araşdırmaları və işbirliyimizi davam etdiririk. 2020-ci il həm də Azərbaycan hökumətinin diqqətəlayiq uğurları ilə də yadda qalacaq. 30 illik işğaldan sonra Qarabağ bölgəsinin azad edilməsindən sonra hökümət bölgənin infrastrukturdan işgüzar mühitin inkişafına qədər tamamilə yenidən qurulması və transformasiyaya uğraması üçün iddialı planlar və hədəflər qoydu. Bu mərhələdə Norm-un bir sement istehsalçısı olaraq həyati bir rol oynayacağına və o gözəl torpaqların yenidən canlanmasına əhəmiyyətli dərəcədə öz töhfəsini verəcəyinə inanırıq.

Baş İcraçı Direktor
**Henning Sasse**



# HESABAT HAQQINDA

# 2


2.1. HESABATIN PROFİLİ

2.2. MARAQLI TƏRƏFLƏRİN CƏLB EDİLMƏSİ

2.3. ƏHƏMİYYƏTLİ ASPEKTLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ




## 2. HESABAT HAQQINDA

### 2.1. Hesabatın profili

Norm ASC (bundan sonra Norm, "Şirkət", "Biz") 1 yanvar 2020-ci ildən 31 dekabr 2020-ci ilədək olan dövr üçün ekoloji, iqtisadi və sosial fəaliyyətləri ümumiləşdirən üçüncü Dayanıqlı İnkişaf haqqında Hesabatını ("Hesabat") məmnuniyyətlə təqdim edir. Müvafiq korporativ məlumatları bir sıra maraqlı tərəflərə, o cümlədən işçilərimiz, müştərilərimiz, təchizatçılarımız, səhmdarlarımız, investorlarımız və yerli icmalara açıqlamaq üçün dayanıqlı inkişaf haqqında hesabatımızı vacib kommunikasiya aləti olaraq dərc etməyə davam edirik. GRI 102-46GRI 102-50

Hesabat Dünya Hesabatlılıq Təşəbbüsünün (GRI Standartları, "Əsas" variantı) dayanıqlı inkişaf haqqında standartlarına uyğun olaraq hazırlanmışdır. Hesabatın məzmununu tərtib edərkən etibarlı, tam, balanslı, dəqiq, başa düşülə bilən, müqayisəli məlumatlar təqdim etmək və əhəmiyyətlilik, maraqlı tərəflərin iştirakı və dayanıqlı inkişaf aspektləri ilə bağlı göstəriciləri və mövzuları əhatə etmək üçün GRI prinsiplərini rəhbər tutmuşuq. GRI məzmun indeksi Hesabatın Əlavələr bölməsində verilmişdir. Əlavə olaraq, mümkün olduğu təqdirdə Qlobal Sement və Beton Assosiasiyasının Qaydalarına (GCCA) etibar edirik. GRI 102-46 GRI 102-54

Hesabat Şirkətin iqtisadi, sosial və ekoloji fəaliyyətləri barədə ətraflı məlumatları əks etdirən 14 bölmədən ibarətdir. Hesabat Azərbaycan və İngilis dillərində rəsmi internet səhifəmizdə (www.norm.az) yerləşdirilmişdir. Hesabat praktikamızı inkişaf etdirmək üçün fərqli maraqlı tərəflərin qruplarının rəylərini, şərhlərini və təkliflərini qiymətləndiririk. Tövsiyələr Hesabatın sonunda qeyd edilən telefon və ya elektron poçt ünvanı vasitəsi ilə göndərilə bilər.

### 2.2. Maraqlı tərəflərin cəlb edilməsi

Norm maraqlı tərəfləri ilə şəffaf, məhsuldar, qarşılıqlı və faydalı tərəfdaşlıqları inkişaf etdirməyə çalışır. Maraqlı tərəflərə aid müxtəlif qrupların tələblərini dəqiqliklə anlamağın və vicdanla yerinə yetirməyin strateji hədəflərə nail olmaq və biznesin inkişafı üçün əsas amil olduğuna inanırıq. 2020-ci ildə COVID-19 pandemiyası nəticəsində tətbiq olunan məhdudiyyətlər səbəbiylə rəsmi internet səhifəsindəki onlayn icma iclasları, sosial media, təkbətək müzakirələr, pres-relizlər, xəbərlər və nəşrlər vasitəsilə maraqlı tərəflərimizlə dialoqa başladıq. GRI 102-44

Şirkətin maraqlı tərəflərin cəlb edilməsi ilə bağlı əməl etdiyi əsas prinsiplərə inklüzivlik, əhəmiyyətlilik, təsir və cavab tədbirləri aiddir. GRI 102-43

**Əhəmiyyətlilik**

Əhəmiyyətlilik hər hansı məsələnin Şirkət və onun maraqlı tərəfləri üçün uyğunluğunu və əhəmiyyətini bildirir.

**Cavab tədbirləri**

Cavab tədbirləri Şirkətin dayanıqlı inkişaf prinsiplərinə təsir göstərən maraqlı tərəflərə verdiyi cavabdır və tədbirlərin görülməsi və maraqlı tərəflərlə ünsiyyət qurulması yolu ilə həyata keçirilir.

**Təsir**

Şirkətin fəaliyyətlərinin və biznes əməliyyatlarının nəticələrinin iqtisadiyyata, ətraf mühitə, cəmiyyətə və maraqlı tərəflərə təsir dərəcəsidir.

**İnklüzivlik**

İnklüzivlik dayanıqlı inkişafa yönəlmiş strateji cavab tədbirlərin hazırlanması və həyata keçirməsində maraqlı tərəflərin iştirak etməsidir.

# 2. HESABAT HAQQINDA

Sxem 1. Əsas maraqlı tərəf qrupları

**İşçilər**
Şirkət təlim proqramlarını və loyallıq bonus proqramlarını təkmilləşdirməklə əlverişli iş mühiti yaratmışdır. Şirkətlə əlaqəli xəbərlər və işçilərin rəyləri barədə vaxtlı-vaxtında yenilikləri öyrənmək üçün mütəmadi qaydada görüşlər, daxili sorğular və poçt üzərindən kommunikasiya aparılır. GRI 102-41

**QHT-lər**
Norm, ictimai məsləhətləşmələr və xeyriyyə fəaliyyətləri ilə qeyri-kommersiya və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edərək cəmiyyətin inkişafında fəal iştirak edir.

**Mediya**
Veb saytımızı və rəsmi sosial media hesablarımızı mütəmadi olaraq etibarlı, aktual və dolğun məlumatlarla yeniləyirik.

**Maraqlı tərəflər**
Biz maliyyə və davamlılıq hesabatlarını dərc etməyə və digər hər hansı məlumatı vaxtında açıqlamağa, həmçinin maraqlı tərəflərlə daha sıx münasibətlər qurmaq üçün mütəmadi qaydada yığıncaqlar keçirməyə çalışırıq.




**Müştərilər**
Biz müştərilərimizin fərdi ehtiyaclarına uyğunlaşdırılmış yüksək keyfiyyətli məhsul və xidmətlər təqdim edirik. Müştəri məmnuniyyətini artırmaq və güclü dəstəyi nümayiş etdirmək üçün sorğu anketləri ilə toplanmış müştəri rəylərini diqqətlə nəzərdən keçiririk. Nümayəndəliklərimiz və ya zəng mərkəzlərimiz müştərilərin problemini dərhal cavablandırır.

**Təchizatçılar**
Norm-un tədarük zənciri həm yerli, həm də beynəlxalq, böyük və kiçik şirkətləri əhatə edir. Keyfiyyətin qiymətləndirilməsi və tender prosedurları ilə tədarükçü və podratçıların səmərəli seçimini həyata keçiririk.

**Dövlət və ictimai orqanlar**
Əməliyyatların təhlükəsizliyini qorumaq və etika, korrupsiyaya qarşı mübarizə və qaydalara əməletmə ilə bağlı səyləri yaxşılaşdırmaq üçün hökumət və yerli hakimiyyət orqanları ilə davamlı müzakirələr aparırıq. Şirkət regional inkişaf üçün investisiya proqramlarında fəal iştirak edir.

**Cəmiyyət**
Cəmiyyətin inkişafı proqramları ianələr, xeyriyyəçilik, maliyyə və qeyri-maliyyə pul yardımı və sponsorluq proqramları vasitəsi ilə yerli ictimaiyyətlə davamlı təmasda həyata keçirilir.





# 2. HESABAT HAQQINDA

## 2.3. Əhəmiyyətli aspektlərin qiymətləndirilməsi

Norm GRI standartlarına və GCCA qaydalarına uyğun olaraq maraqlı tərəflərimiz üçün xüsusi maraq doğuran ekoloji, sosial və iqtisadi məsələləri müəyyənləşdirmək və təhlilimizin hadisələri və dəyişən biznes prioritetlərini əks etdirməsini təmin etmək üçün 2020-ci ildə əhəmiyyətli aspektlərin illik qiymətləndirməsini həyata keçirməyə davam edir. 2020-ci ilin hesabatının hazırlanması zamanı əsas mövzular iki meyar əsasında seçilmişdir: mövzunun maraqlı tərəflər və Şirkət üçün əhəmiyyəti. Dayanıqlı inkişafla bağlı ən uyğun göstəriciləri seçmək üçün əhəmiyyətliliklə bağlı mövzular üç mərhələli prosesdən istifadə edilərək müəyyənləşdirilir. GRI 102-44GRI 102-46GRI 102-47

Sxem 2. Əhəmiyyətliliklə bağlı mövzuların seçilmə mərhələləri

**Mərhələ 1.** **Müəyyənləşdirmə**
Sement sənayesi ilə əlaqəli siyasət tendensiyalarını və iş imkanlarını müəyyənləşdirmək üçün sektordakı tendensiyaları araşdırdıq və sektorda fəaliyyət göstərən müəssisələrin dayanıqlığı ilə müqayisə etdik.

**Mərhələ 2.** **Qiymətləndirilmə**
Müəyyən olunmuş məsələləri maraqlı tərəflər baxımından qiymətləndirdik.

**Mərhələ 3.** **İnkişaf**
Əhəmiyyətli mövzuların yekun siyahısı bu təhlilin nəticələrinə əsaslanır və tamlıq, əhəmiyyətlilik və maraqlı tərəflərin iştirakı prinsiplərini nəzərə alır.

Şəkil 3. Əhəmiyyətlilik matrisi









# ŞİRKƏTİN PROFİLİ

# 3

3.1. İL ƏRZİNDƏ BAŞ VERMİŞ ÖNƏMLİ HADİSƏLƏR

3.2. ŞİRKƏT HAQQINDA

3.3. DƏYƏR ZƏNCİRİ

# 3. ŞİRKƏTİN PROFİLİ

## 3.1. İl ərzində baş vermiş önəmli hadisələr

Baş ofisi Bakıda yerləşən Norm-un uzunmüddətli dəyər yaratmaq və yerli və beynəlxalq sement bazarında güclü lider mövqeyi əldə etmək missiyasını təcəssüm etdirən böyük hədəfləri var. 2020-ci ildə də məsuliyyətli biznes əməliyyatları aparmağa davam etdik və Cənubi Qafqaz regionundakı ən böyük sement istehsalçısı statusunu qoruyub saxladıq. Missiyamızdan əlavə, iqtisadi məqsədimiz sement, klinker və digər sement materiallarının idxalından asılılığı azaltmaqdır. Bunu nəzərə alaraq, maliyyə, ekoloji və sosial hədəflərə uyğunlaşdırılmış biznes əməliyyatlarının dəstəklənməsini və yeni məhsulların təqdimatını həyata keçirərək inşaat sektoruna yeni tendensiyalar və təcrübələr gətirməyi hədəfləyirik. GRI 102-1 GRI 102-2 GRI 102-3

2020-ci il ərzində bir neçə mərhələ uğurla həyata keçirilmişdir:

- Yeni kütləvi məhsulun tətbiqi: KLASS L (CEM II/A-L 42.5R)
- Altı kameralı yeni sement silosunun tikintisi;
- Yeni paletləmə xəttinin işə salınması;
- API sertifikatı almaq üçün əksər audit tələblərinin tamamlanması;
- Yeni çirkab su təmizləyici qurğusunun qurulması.




## 3.2. Şirkət haqqında

2020-ci ildə rəhbərliyimiz dayanıqlı inkişaf imkanlarını nəzərə alaraq bazarda lider olmaq məramımıza nail olmaq üçün qətiyyətli addımlar atdı. COVID-19 pandemiyası səbəbilə yaranan iqtisadi və əməliyyatlarla bağlı problemlərə baxmayaraq, innovasiya və dayanıqlı inkişafa əsaslanan idarəetmə qərarları sayəsində fəaliyyətlərimizi və satış həcmimizi artırmağa davam etdik. Məsələn, BEUMER Group ilə Şirkətimizin birgə səyləri nəticəsində yeni silo inşa edilmiş və paletləmə xətti istifadəyə verilmişdir. İlk olaraq, tərəfdaşımızla ünsiyyət üçün güclü baza yaratdıq, daha sonra isə yüksək ixtisaslı Norm kadrları üçün onlayn təlimlər keçirildi. Nəhayət, “plug and play” texnologiyasından istifadə edərək yeni qablaşdırma xəttinin “uzaqdan” idarə edilməsi bizə həvalə edildi. Hər il davamlı olaraq marketinq araşdırmaları aparırıq, bu da bu il pandemiya zamanı müştəri tələbindəki dəyişikliyi başa düşməyimizə və artan istehsal gücündən faydalı şəkildə istifadə etməyimizə imkan yaratmışdır. Nəticədə, bu il yeni qalaq sement növü olan KLASS L-i (CEM II/A-L 42.5R) təqdim etdik. Beləliklə, bazar tələbinə görə sement və klinker istehsalımız müvafiq olaraq 4% və 21% artmışdır. GRI 102-2 GRI 102-4 GRI 102-5





# 3. ŞİRKƏTİN PROFİLİ

Sxem 4. Sement və klinker istehsalında tendensiyalar




Sxem 5. Əsas məhsul sinifləri üzrə təsnifləşdirilmiş sement istehsalı portfeli



# 3. ŞİRKƏTİN PROFİLİ

## 3.3. Dəyər zənciri

Biznes modelimiz müştərilərimizə əlavə dəyəri ən yüksək olan məhsulları mümkün qədər ən aşağı qiymətə təqdim etməyə əsaslanır. Dəyər zəncirimizin dayanıqlı şəkildə fəaliyyət göstərməməsi şirkətimizin əməliyyatlarında maliyyə və strateji risklər yarada, eləcə də fəaliyyətimizin zəifləməsinə və müştərilərin narazılığına səbəb ola bilər. Buna görə də dəyər zəncirinin idarə olunması biznesin səmərəliliyinin artırılması üçün vacibdir. Cavab planı olaraq dəyər zəncirimizin monitorinqi bu riskləri aradan qaldırmaqla yanaşı, rəqabət üstünlüyü və gələcək inkişaf üçün yeni fürsətlərdən yararlanmağımıza imkan verəcəkdir.

Sxem 6. Dəyər zəncirinin əsas fəaliyyətləri








3. ŞİRKƏTİN PROFİLİ

Sxem 7. Biznes əməliyyatlarının dəstəklənməsi



# DAYANIQLI İNKİŞAF YANAŞMASI

# 4

4.1. İDARƏETMƏ STRUKTURU
4.2. MƏRAMIMIZ, MİSSİYAMIZ VƏ DƏYƏRLƏRİMİZ
4.3. BMT-NİN DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNƏ TÖHFƏMİZ
4.4. MƏQSƏDLƏR VƏ XÜSUSİ TƏŞKİLATI HƏDƏFLƏR



## 4. DAYANIQLI İNKİŞAF YANAŞMASI

Cənubi Qafqazda ən böyük sement zavodu olaraq, əməliyyatlarımızın istehsal prosesinin bütün mərhələlərində ətraf mühitə təsir göstərdiyini başa düşürük. Nəticə olaraq, bu təsirin müsbət istiqamətdə olmasını təmin etməyə çalışırıq. Norm olaraq biznes qərarlarımızı dayanıqlı inkişaf prinsiplərinə yönəldərək və ətraf mühitin mühafizəsi, sosial və idarəetmə (ESG) məsələlərini dəyər zəncirimizə daxil edərək dayanıqlı inkişafa töhfə verməyə qərarlıyıq. Dayanıqlı inkişafa sadiq olmağımız yerli əhaliyə yönələn fəaliyyətlərimiz sayəsində regional inkişafın dəstəklənməsi və həyat keyfiyyətinin yüksəldilməsinə yönəlmiş korporativ sosial məsuliyyət (CSR) tədbirlərinin icrası ilə ayrılmazdır.

Məsuliyyətli işəgötürən olaraq insan kapitalını öz inkişafımızdan daha üstün tuturuq. İş yerində insan hüquqlarına əməl olunmasına və iş şəraitinin, təlim sisteminin yaxşılaşdırılmasına, korporativ mədəniyyətin inkişafına və hər bir işçinin öz potensialını anlaması üçün rahat şərait yaratmağa diqqət yetiririk. Bütün işçilərimizi təhlükəsiz iş şəraitində işləmələrini təmin etmək üçün strategiyalar, idarəetmə sistemləri və proseslər tətbiq etmiş və onları təkmilləşdirmişik. COVID-19 pandemiyası səbəbilə iş yerlərində sağlamlıq və təhlükəsizlik qaydalarına əməl etmək üçün testlər keçirərək və lazımi tibbi xidmətlər göstərərək, o cümlədən mütəmadi olaraq dezinfeksiya işləri apararaq işçilərimizi infeksiyadan qorumaq məqsədilə tədbirləri gücləndirdik. Beləliklə, dayanıqlı inkişaf konsepsiyamız həyata keçirdiyimiz müxtəlif təşəbbüslər vasitəsilə ESG üzrə fəaliyyətimizi yaxşılaşdırmaq üçün metodlar müəyyən edir. GRI 102-15 GRI 102-16

### 4.1. İdarəetmə strukturu

Güclü idarəetmə strukturu dayanıqlı inkişafın fəaliyyət və əməliyyatlarımızın mərkəzində olmasını təmin edir. Norm-un baş rəhbərliyi dayanıqlı inkişaf konsepsiyamızın həyata keçirilməsinə fəal nəzarət edir. Hesabatlılığa ciddi əmə etməklə yanaşı bütün korporativ idarəetmə tədbirlərinin dürüst şəkildə fəaliyyət göstərmək və maraqlı tərəflərin güvənini qorumaq baxımından vacib olduğunu düşünürük. GRI 102-20

Dayanıqlı inkişafın idarə edilməsi strukturunu davamlı şəkildə inkişaf etdirməyə çalışırıq. Bu məqsədlə əsas fəaliyyət göstəricilərimiz (ƏFG) hər il müəyyən edilir və bu da hər departament üçün Direktorlar Şurası tərəfindən hazırlanmış illik fəaliyyət planında əks olunur. Daha sonra, rəhbərliyin həftəlik iclaslarında bütün departamentlər fəaliyyət planının həyata keçirilməsində irəliləyişlə nəticələnən müvafiq tədbirlər barəsində Baş İcraçı Direktora və Direktorlar Şurasına hesabat verir. Qiymətləndirmə və monitorinq prosesləri üçün hər bir departament həyata keçirilmiş tədbirlər və meydana çıxan problemlər barədə rəhbərliyə aylıq hesabatlar təqdim edir. GRI 102-19 GRI 102-26 GRI 102-29 GRI 102-32

2020-ci ildə dayanıqlı inkişaf təşəbbüslərini həyata keçirməkdən və inteqrasiya etməkdən VİS və SƏTƏM departamentləri məsuliyyət daşıyır. Bu departamentlər həmçinin Biznesin Davamlılığı Planına əsaslanan hədəflərə nail olmaq üçün strateji layihələrin planlaşdırılması üzrə fəaliyyətlər həyata keçirirlər. Bu plan diqqəti biznesin davamlı inkişafına yönəldərək potensial təhlükələrin qarşınının alınması və bərpa sistemi yaradaraq fəaliyyətlərimizi inkişaf etdirməyimizə imkan verir. GRI 102-31

# 4. DAYANIQLI İNKİŞAF YANAŞMASI

## 4.2. Məramımız, missiyamız və dəyərlərimiz

Missiyamız Norm-un uğurlarını uzun illər ərzində təmin etmək üçün uzunmüddətli dəyər yaratmaq və yerli və beynəlxalq bazarda istehsal bazası qurulmasında lider mövqeyi əldə etməkdir.

Təhlükəsiz infrastrukturun yaradılmasında əvəzolunmaz rol oynayan şirkət olmağa çalışırıq. Ölkənin lider sement istehsalçısı olaraq qalmağı və yeni məhsul xətləri yaratmaqla yerli tələbatı tam şəkildə qarşılayaraq Azərbaycana sement idxalının əhəmiyyətli dərəcədə azalmasına nail olmağı öz məramımız olaraq qəbul edirik.

2020-ci ildə COVID-19 pandemiyası ilə bağlı qlobal vəziyyətə baxmayaraq, fəaliyyətlərimizi Amerika Neft İnstitutunun (API) tələblərinə uyğun olaraq inkişaf etdirməyə nail oluruq. API tələblərinə uyğunluğa nəzarət etmək üçün yüksək və orta səviyyəli rəhbərliyimiz Şirkətin strategiyaları ilə bağlı meyarlarını nəzərdən keçirmək və yeniləmək üçün mütəmadi olaraq potensial sənaye təhdidlərini və imkanlarını müzakirə edir. Bu da maraqlı tərəflərin cəlb edilməsini, eləcə də yeni inkişaf imkanlarına və potensial risklərə diqqət yetirilməsini nəzərdə tutan dəyərlərin yaradılmasına gətirib çıxarmışdır. GRI 102-15 GRI 102-16 GRI 103-2

Sxem 8. Norm-un əsas dəyərləri






Dayanıqlı inkişaf haqqında hesabat

# 4. DAYANIQLI İNKİŞAF YANAŞMASI

## 4.3. BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə töhfəmiz

BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (DİM) proqramının həyata keçirilməsində fəal iştirak etməyə davam edirik. Məramımızı, missiyamızı və dəyərlərimizi dəstəkləmək məqsədilə Norm biznes fəaliyyəti üçün daha əhəmiyyətli olan və Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) birbaşa uyğun gələn 10 əsas məqsədi həyata keçirmişdir. Bu öhdəliyin bir hissəsi olaraq, səylərimizi yoxsulluğun azaldılmasına, təhsilin və əhalinin rifah halının yaxşılaşdırılmasına, insanların cinsindən asılı olmayaraq işlə təmin olunmasına və innovativ texnologiyaların tətbiqi ilə ekoloji problemlərin aradan qaldırılmasına yönəldirik. Bu şəkildə əməliyyatlarımızı ehtiyac duyulan sahələrə yönəldərək səylərimizi gücləndirməyi hədəfləyirik.

## 4.4. Məqsədlər və xüsusi təşkilati hədəflər

Hər il nəzərdən keçirdiyimiz korporativ hədəflərimiz dayanıqlı inkişafın üç əsas sahəsini əhatə edən dayanıqlı inkişaf göstəricilərini özündə birləşdirir: sosial, ekoloji və iqtisadi. Aşağıdakı cədvəldən də göründüyü kimi, prioritet DİM-lər birbaşa olaraq dəyərlərimizlə, o cümlədən təhlükəsiz və inklüziv iş mühiti yaratmaq öhdəliklərimizlə bağlıdır. Buna görə də, inanırıq ki, Norm-un digər addımları ilə yanaşı, DİM-lərin həyata keçirilməsi BMT-nin qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün verilən töhfədir. GRI 103-2



# İDARƏETMƏ, ETİKA VƏ UYĞUNLUQ

# 5


5.1. KORPORATİV İDARƏETMƏ

5.1.1. İDARƏ HEYƏTİ

5.1.2. İDARƏETMƏ KOMİTƏLƏRİ

5.1.3. DÜRÜSTLÜK

5.1.4. İNSAN HAQLARININ İDARƏ EDİLMƏSİ

5.1.5. ŞƏFFAFLIQ

5.1.6. QAYDALARA UYĞUNLUQ

5.1.7. RİSKLƏRİN VƏ İMKANLARIN İDARƏ EDİLMƏSİ




# 5. İDARƏETMƏ, ETİKA VƏ UYĞUNLUQ

## 5.1. Korporativ idarəetmə

Norm olaraq biz, güclü korporativ idarəetmə strukturuna sahib olmağa böyük önəm veririk. Uyğunluq, şəffaflıq və dürüstlük korporativ idarəetmə üzərindəki güclü nəzarət ilə sıx şəkildə bağlıdır.

Ali idarəetmə orqanlarının fəaliyyətlərinin yaxşı və uğurla təşkil edilməsini təmin etmək üçün müvafiq yerli qanunvericiliyə və beynəlxalq standartlara riayət edilməsini təmin edirik. Korporativ strukturumuz Nizamnaməmizə və Beynəlxalq Maliyyə Təşkilatı ilə əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən qəbul edilmiş idarə etmə standartlarına tam uyğundur.

Sxem 9. Direktorlar Şurasının müzakirə mövzuları




### 5.1.1. İdarə heyəti

Hesab edirik ki, şirkətimizin idarə edilməsində idarə heyətimizin rolu əhəmiyyətlidir. İdrə heyəti iki orqandan ibarətdir: Direktorlar Şurası və Baş Rəhbərlik.

Direktorlar Şurası Norm-un strateji istiqamətindən, nəzarətindən və idarə edilməsindən məsuldur. 2020-ci ildə Direktorlar Şurası iki yeni üzv qəbul etmişdir. Direktorlar Şurası rüblük və ehtiyac olduqda iclaslar keçirir. 2020-ci ildə Direktorlar Şurası dörd dəfə iclas keçirmişdir. Direktorlar Şurasının iclasları Sxem 9-da göstərilən 8 əsas müzakirə mövzusuna bölünür. GRI 102-10 GRI-102-26 GRI-102-28

Direktorlar Şurasından əlavə, baş rəhbərlik və rəhbər işçilərdən ibarət peşəkar və bacarıqlı heyətin idarəçiliyinə böyük əhəmiyyət veririk. Baş rəhbərliyimiz Norm-un gündəlik fəaliyyətlərini idarə edən Baş İcraçı Direktor, Baş Maliyyə Direktoru və Kommersiya işləri üzrə Baş direktordan ibarətdir. Baş rəhbərliyimiz müəyyən edilmiş dayanıqlı inkişaf məqsədlərinə nail olma yolundakı nailiyyətlər, o cümlədən sosial və ekoloji problemlər kimi məsələləri müzakirə edərək, Norm-un ali idarəetmə orqanlarının Şirkətimizin dayanıqlı inkişafa verdiyi əhəmiyyəti nümayiş etdirir. GRI 102-18 GRI 102-27 GRI 102-29

# 5. İDARƏETMƏ, ETİKA VƏ UYĞUNLUQ

Sxem 10. Təşkilati struktur



## 5.1.2. İdarəetmə Komitələri

Şəffaf əməliyyatlar həyata keçirən şirkət olaraq, bütün fəaliyyətlərimizə xüsusi diqqət yetirməyin vacibliyini başa düşürük. Buna görə hər bir əməliyyata lazımi diqqət göstərilməsini təmin etmək üçün beş komitə yaratmışıq. Komitələrimizə İnsan Resursları Komitəsi, Daxili Audit Komitəsi, Kredit Komitəsi, Tender Komitəsi və Etika Komitəsi daxildir. GRI 102-18 GRI 102-19 GRI 102-22

Sxem 11. İdarəetmə Komitələri

| İR Komitəsi | Daxili Audit Komitəsi | Kredit Komitəsi | Tender Komitəsi | Etika Komitəsi |
|---|---|---|---|---|
| Qeyri-icraçı, Direktorlar Şurasına hesabat verir, 2 üzv | Qeyri-icraçı, Direktorlar Şurasına hesabat verir, 3 üzv | İcraçı, Baş İcraçı Direktora hesabat verir, 5 üzv | İcraçı, Baş İcraçı Direktora hesabat verir, 5 üzv | İcraçı, Baş İcraçı Direktora hesabat verir, 3 üzv |
| İnsan Resursları Komitəmiz Norm-un insan kapitalına ən böyük aktivlərimizdən biri olaraq önəm verdiyini nümayiş etdirir. İnsan Resursları Komitəsi İnsan Resursları ilə bağlı məsələlər haqqında Direktorlar Şurasına məsləhət verir və bu məsələlərə lazımi diqqət göstərildiyindən əmin olur. Komitə son qərarı verən Direktorlar Şurasına bildiriləcək müvafiq İnsan Resursları ilə bağlı məsələləri təyin edir. | Daxili Audit Komitəsi fəaliyyətlərimizin mövcud norma və standartlara tam uyğunluğunu təmin edərək qaydalarla bağlı yenilikləri təmin edir. Bundan əlavə, Komitə nəzarətin yaradılması məqsədilə Şirkətin maliyyə və əməliyyat göstəricilərini nəzarət altında saxlayır. | Kredit Komitəsi bazar mühitinə uyğun gələn müvafiq satış strategiyası hazırlamağa və həyata keçirməyə yönəlmişdir. Komitə kreditlə bağlı siyasətlərin effektivliyinə və idarə olunmasına nəzarət etmək üçün Şirkətin kredit portfelini də idarə edir. | Tender Komitəmiz tender prosesi, seçimlə bağlı qərarların verilməsindən və malların və xidmətlərin satın alınmasından məsuliyyət daşıyan əsas orqandır. Dünyadakı ən yaxşı təcrübələrə riayət edərək, tender prosesinə xüsusi diqqət ayıran ayrı komitənin olmasının məqsədəuyğun olduğunu hesab edirik. Müvafiq və uyğun təchizatçı seçmək bizim üçün müxtəlif perspektivlərdən vacibdir. | Etika Komitəmiz aşkar olunmuş pozuntu hallarını araşdırılması və etika ilə bağlı həll olunmamış məsələlərin həll edilməsindən məsuliyyət daşıyır. Maraqlı tərəflərimizi müsbət iş mühiti təmin etməyə xüsusi önəm veririk. Bu da etik normalara riayət etməklə sıx bağlıdır. |





# 5. İDARƏETMƏ, ETİKA VƏ UYĞUNLUQ

## 5.1.3. Dürüstlük

Dürüstlük və doğruluq əsas dəyərlərimizdir, bu səbəbdən Norm yüksək ləyaqətlə fəaliyyət göstərməyə sadiqdir. Müvafiq intizamla və ayrıseçkiliyə yol verilmədən inklüziv və təhlükəsiz iş mühitinin təmin edilməsinə diqqət ayırırıq.

Norm-un Etika Məcəlləsi (EM) Norm-un işçilərinin öz fəaliyyətlərinin bütün istiqamətlərində ən yüksək səviyyəli davranış tərzi nümayiş etdirmələrini nəzərdə tutan bütün standartları özündə birləşdirir. Etika Məcəlləsi internet səhifəmizdə yerləşdirilmişdir və bu kimi məsələləri vurğulayır:

- Məxfilik və gizlilik;
- Hədiyyələrin verilməsi və qəbul edilməsinə dair siyasət;
- Münaqişələrin qarşısının alınması;
- Ədalətli iş mühitinin yaradılması və saxlanması;
- Ayrı-seçkiliyin qəbul edilməməsi. GRI 102-25

### Korporativ İdarəetmə

Norm olaraq daim inkişaf edir və irəliləyirik, bu səbəbdən 2020-ci ildə Etika Məcəlləmizi yeniləməyə və təkmilləşdirməyə davam edirik. Yaxın gələcəkdə yeni etika siyasəti hazırlamağı planlaşdırırıq. GRI 102-16

Etika məsələlərinə ciddi yanaşırıq və bu səbəbdən də müəssisədə dürüstlüyə və etik davranışlara nəzarət edən orqan olan Etika Komitəsini yaratmışıq. Maraqlı tərəflərimizin öz fikirlərini azad şəkildə ifadə etmələrini təmin edirik. Hər kəsin həm şirkət daxilində, həm də xaricində etika ilə bağlı narahatlıqlarını və ya problemlərini bildirə bilmələrini təmin etmək üçün maraqlı tərəflərimizi Etika Komitəsi ilə əlaqələndirən qaynar xəttimiz var. Qaynar xəttimizə zəng mərkəzimiz vasitəsilə və ya birbaşa olaraq müraciət etmək olar (qaynar xətlə necə əlaqə saxlamaq barədə ətraflı məlumat Etika Məcəlləsində qeyd edilmişdir).

Bildirilən məsələlər gündəmə gətirilir, Etika Komitəsində müzakirə olunur və bu barədə Baş İcraçı Direktora hesabat verilir. GRI 102-17

Bundan əlavə, işçilərimiz üçün hər il etika haqqında təlimlər keçiririk və 2020-ci il istisna deyildi. Etika haqqında təlimlər bütün işçilərin etik norma və standartlara dair biliklərini yeniləmək məqsədilə keçirilir.

Norm istənilən formada korrupsiyanı qəbul etmir və İƏİT, Transparency International, ISO kimi dünyanın aparıcı təşkilatları tərəfindən müəyyən edilmiş müvafiq anti-korrupsiya standartlarına, habelə Böyük Britaniyanın rüşvətxorluqla mübarizə qanununun və ABŞ-ın Beynəlxalq korrupsiya ilə mübarizə qanununun tələblərinə əməl edir. 2020-ci ildə Norm-da heç bir korrupsiya ilə mübarizə halları aşkar edilməmişdir.

Şirkətimiz hazırda rüşvətxorluq və korrupsiya ilə mübarizə ilə bağlı yeni siyasətlər və prosedurlar üzərində işləyir. 2020-ci ildə Korrupsiya ilə mübarizə üzrə idarəetmə sisteminə dair ISO sertifikatının alınmasına başlamışıq və hazırda proses davam edir. API-nin auditləri və yoxlama prosesi də Norm-da bizim üçün şəffaf mühit yaratmışdır. Bu cür sertifikatların alınması şəffaflığımızı daha da nümayiş etdirəcəkdir. GRI 205-2

## 5.1.4. İnsan Haqlarının idarə edilməsi

Əmək hüquqları, azlıq qruplarının hüquqları və təhlükəsiz şəraitdə işləmək hüququ kimi əsas insan hüquqlarına hörmət etməyin vacibliyini anlayırıq. Norm Avropa İnsan Haqları Konvensiyasının 14-cü maddəsinə riayət edir. Biz həmçinin Azərbaycan Respublikasının üzv olduğu digər təşkilatların tələblərinə əməl edirik. 2020-ci ildə heç bir insan hüquqlarının pozulması, uşaq əməyi, məcburi və ya icbari əmək halları aşkar edilməmişdir. GRI 406-1 GRI 408-1 GRI 409-1 GRI 412-1

# 5. İDARƏETMƏ, ETİKA VƏ UYĞUNLUQ

## 5.1.5. Şəffaflıq

Şəffaf iş mühitinin yaradılmasını dəstəkləmək üçün Norm fəaliyyətlərimizin şəffaflığını bir daha təsdiqləməyə çalışır. Çoxsaylı auditlər aparır və əməliyyatlarımızın şəffaflığından əmin olduğumuzu göstərən müxtəlif hesabatlar dərc edirik.

Norm hər il ictimaiyyətə açıq olan maliyyə hesabatları ilə yanaşı dayanıqlı inkişaf haqqında hesabatlar da buraxır. Bundan əlavə, ASC olduğumuz üçün korporativ idarəetmə, maliyyə hesabatları və qiymətli kağızlar bazarının qaydalarına uyğunluq barədə Mərkəzi Banka mütəmadi olaraq hesabat veririk. Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Fövqəladə Hallar Nazirliyinə də mütəmadi olaraq hesabatlar təqdim edirik.

Norm Azərbaycan Respublikası hökuməti tərəfindən aparılan illik vergi yoxlamasından keçir və təqdim olunan nəticələri təhlil edir.

## 5.1.6. Qaydalara uyğunluq

Qanunlara əməl etməyimiz qanun çərçivəsində fəaliyyət göstərməyimizi əks etdirir. Norm Azərbaycan Respublikasının Qanunlarına, eləcə də Beynəlxalq Əmək Təşkilatının və Birləşmiş Millətlər Təşkilatının müəyyən etdiyi qaydalara tam şəkildə əməl edir.

İşçilərimizin hər birinin qaydalara riayət etməsini təmin etmək üçün qaydalara edilən hər hansı dəyişikliklər elektron poçtla hər kəsə çatdırılır.

Qaydalaraəməl etməkdən əlavə beynəlxalq bazarda rəqabətə davam gətirmək üçün sənaye standartlarına riayət edirik. Hal-hazırda API standartlarına riayət etməyə çalışır və 2021-ci ildə API Spec Q1 sertifikatı almaq üçün yoxlamalardan keçirik. Norm eyni zamanda Avropa Sement Tədqiqatları Akademiyasının və Türkiyə Sement İstehsalçıları Birliyinin üzvüdür. Bu da müvafiq sənaye tendensiyalarına daha yaxşı əməl etməyimizə kömək edir. GRI 102-5 GRI 307-1 GRI 319-1

## 5.1.7. Risklərin və imkanların idarə edilməsi

Riskləri proqnozlaşdırmaq çətin olsa da, Norm olaraq bacardığımız qədər onların nəticələrinin qarşısını almaq üçün əlimizdən gələni edirik. SƏTƏM və VİS Departamentinin vəzifələrinə əməliyyatlar zamanı ortaya çıxan risklərin müəyyənləşdirilməsi, onlara nəzarət edilməsi və cavablandırılması aiddir. 2020-ci ildə məhsulların çatdırılmasına və keyfiyyətinə təsir göstərə biləcək riskləri və təhdidləri, nəzarət tədbirləri və görüləcək tədbirləri, təhlükəli qəzaların nəticələrinin aradan qaldırılması zamanı istifadə ediləcək resursları müəyyənləşdirmək üçün Şirkətin bütün proses və fəaliyyətlərinə tətbiq olunan yeni Fövqəladə Hallarda Planlaşdırma modelini hazırladıq. Fövqəladə Hallarda Planlaşdırmanın məqsədləri aşağıdakılardır:

- Qəzanın vacib funksiyalar, eləcə də müştərilər, işçilər və digər maraqlı tərəflər üzərindəki təsirlərini minimuma endirmək;
- Əvvəlcədən təyin olunmuş vaxtlarda prioritet xidmətlərin göstərilməsini davam etdirmək;
- Bütün imkanları mümkün qədər tez bərpa etmək;
- Vəzifə və səlahiyyətlərin müəyyənləşdirilməsi və təyin edilməsi;
- Daxili və xarici ünsiyyətə nəzarəti davam etdirmək.

Əməliyyatlarımızda beş əsas risk kateqoriyasını müəyyən edirik. Bu kateqoriyalara əsasən, mümkün risklərin yüngülləşdirilməsi və azaldılması ilə bağlı strategiyalar işləyib hazırlamışıq və onları həyata keçiririk. GRI 102-11 GRI 102-15





# 5. İDARƏETMƏ, ETİKA VƏ UYĞUNLUQ

Sxem 12. Risk kateqoriyaları




Bütün mümkün riskləri proqnozlaşdırmağa çalışsaq da, 2020-ci ildə Norm COVID-19 pandemiyası və bununla bağlı gözlənilməz risklərlə qarşılaşdı. Pandemiya işçilərimizin ofisdən işləmə imkanlarına təsir göstərsə də, satış və istehsal baxımından heç bir əhəmiyyətli risk yaratmadı. GRI 102-30



# İQTİSADİ FƏALİYYƏT

6



# 6. İQTİSADİ FƏALİYYƏT

Azərbaycanın ən böyük sement istehsalçılarından biri olan Norm ümumilikdə iqtisadiyyat üçün müxtəlif yollarla dəyər yaratmaqda mühüm rol oynayır. Vergi ödəyicisi, investor və yerli əmək bazarında işəgötürən olaraq gəlirlər əldə etməklə iqtisadi inkişafı dəstəkləyirik. Aşağıdakı göstəricilər Norm-un əməliyyatlarının insanlar və iqtisadiyyat üzərində birbaşa, dolayı və antropogen təsirini əks etdirmək üçün seçilmişdir. GRI 201-1

Sxem 13. İqtisadi fəaliyyət tendensiyası, AZN ilə




Uzunmüddətli strategiyamızı davamlı inkişaf və səmərəli dayanıqlı istehsal əsasında işləyib hazırladıq. Bu istiqamətdə, COVID-19 pandemiyasının səbəb olduğu çətinliklərə baxmayaraq, Şirkət 2020-ci maliyyə ilini məhsulların yüksək keyfiyyəti, kisə və qalaq məhsulların böyük satış həcmi və güclü müştəri və təchizatçı münasibətləri sayəsində mükəmməl performansla başa vurdu. 2020-ci ildə sement istehsalı 4% artdı və Şirkət əvvəlki ilə nisbətən 5% daha çox gəlir əldə etdi. Bölüşdürülməmiş məcmu iqtisadi dəyər əvvəlki ildə hesabat olunan orta rəqəmlə müqayisədə xammalın maya dəyəri, əməliyyat xərcləri və sosial xərclərdəki artım səbəbilə bir qədər azalmışdır. GRI 201-3

**26.6 milyon AZN**

Bölüşdürülməmiş birbaşa iqtisadi dəyər

# 6. İQTİSADİ FƏALİYYƏT

Sxem 14. Əldə edilmiş və paylanmış iqtisadi dəyər, AZN ilə




Norm vergi məsuliyyətini tam şəffaflıqla və diqqətli şəkildə idarə edir. 2020-ci ildə Şirkət dövlət büdcəsinə vergilər, rüsumlar və sosial müdafiə xərcləri şəklində ümumilikdə 21 milyon AZN vəsait ödəmişdir. Sosial məsuliyyət öhdəliklərinin bir hissəsi olaraq Norm aztəminatlı ailələrə, uşaqlara və xüsusi qayğıya ehtiyacı olan yaşlılara maddi və qeyri-maddi yardımlar, ianələr və pul köçürmələri ilə dəstəyini davam etdirir. 2020-ci ildə Şirkətin sosial xərcləri əvvəlki illə müqayisədə yeddi dəfə artmışdır. Cəmiyyətə dəstəklə bağlı daha ətraflı məlumat bu Hesabatın "Cəmiyyətə dəstək" bölməsində verilmişdir. GRI 201-3

Sxem 15. Sosial xərclər tendensiyası, AZN ilə






# İNSAN RESURSLARIMIZ

# 7

7.1. İŞÇİLƏRİN FƏALİYYƏTİNİN VƏ BİLİKLƏRİNİN İDARƏ EDİLMƏSİ
7.2. İŞÇİLƏRİN İNKİŞAFI
7.3. KOMPENSASİYALAR VƏ MÜAVİNƏTLƏR
7.4. İŞÇİLƏRİN İŞ YERİNDƏN MƏMNUNLUĞU
7.5. MÜXTƏLİFLİK VƏ İNKLÜZİVLİK

# 7. İNSAN RESURSLARIMIZ

BMT-nin Dayanıqlı İnkişaf məqsədlərinə töhfəmiz

293
işçi

253
müddətsiz əmək müqaviləsi bağlayan işçi

289
tam ştat işləyən işçi

6.48%
işçi dövriyyəsi

## 7.1. İşçilərin fəaliyyətinin və biliklərinin idarə edilməsi

Norm hər zaman daha yaxşı işəgötürən olmağa çalışır. İnsan resurlarımıza dəyər veririk və müxtəlifliyi və inklüzivliyi gücləndirərək işçilərimizin inkişafı üçün səy göstərəcəyik. İşçilərimizin sayı hər il artır və hesabat dövrünün sonunda 293 nəfər işçimiz var. Norm insan resurlarımıza yatırılan sərmayənin Şirkətimizin inkişafına yatırılan sərmayə olduğuna inanır. İnsan resurslarımızın inkişafı və artması üçün mümkün olan ən yaxşı şəraiti təmin etməyi hədəfləyirik. İşgüzar fəalliyyətlərimiz zamanı dürüstlüyü təmin etmək üçün İnsan Resursları (İR) komandamız Azərbaycan Respublikasının Əmək Məcəlləsinin tam şəkildə yerinə yetirilməsinə cavabdehdirlər. Norm olaraq iş yerində ən yüksək səviyyədə dürüstlüyü təmin etmək üçün bütün işçilərimizin Etika Məcəlləmizə əməl etmələri gözlənilir. İşçilərin idarə edilməsinin daha strukturlu və qüsursuz olmasını təmin etmək üçün bir sıra daxili siyasətlər işləyib hazırladıq. İnsan Resursları Komitəmiz bu kimi məsələlərə lazımi diqqət göstərildiyindən əmin olmaq üçün müvafiq İnsan Resursları ilə bağlı məsələlər ilə məşğul olur. GRI 102-21 GRI 401-1





# 7. İNSAN RESURSLARIMIZ

## 7.2. İşçilərin inkişafı

Şirkətimizin uğurlu fəaliyyəti şübhəsiz ki, işçilərimizin bacarıqlarından, təcrübələrindən və davranışlarından asılıdır. Ən yüksək səviyyədə fəaliyyət göstərmək üçün hər zaman işçilərimizin inkişafına imkan yaratmalıyıq. Uğurlu nəticə əldə etmək üçün işçilərimizə davamlı dəstək göstərməyə və onları məlumatlandırmağa çalışırıq.

2018-ci ildə insan resurslarımızı effektiv şəkildə idarə etməyimizə və onlara ən yaxşı imkanları yaratmağımıza kömək edən İnsan Resurslarının İdarə edilməsi sistemini yaratdıq. Bu sistem qiymətləndirmə sistemini, işçilərin biliklərinin idarə edilməsini və işçilərin məmnunluğu sorğusunu özündə birləşdirir. Davamçıların hazırlanması prosesinin bir hissəsi olaraq, rəhbərliyimiz aparıcı heyət üçün proqram işləyib hazırlamış və bu da rəhbərliyin dayanıqlı inkişafa sadiqliyini artırmışdır. İşçilərimizin məqsəd və hədəfləri Şirkətin məqsədi ilə uyğunlaşır və hər bir işçiyə uyğun gəlməsi üçün xüsusi olaraq hazırlanmışdır. Hər bir işçiyə həm özlərinin, həm də rəhbərliyin onların fəaliyyətlərini izləmələrinə kömək edən fərdi və korporativ Əsas fəaliyyət göstəricisi (ƏFG) təyin olunur.

ƏFG-lər rəhbərliyimizin işçilərin fəaliyyəti ilə bağlı ədalətli qərar verməsinə kömək edir. Norm-un hər bir işçisi ən azı ildə bir dəfə fəaliyyət və davranışı ilə bağlı müvafiq təhlil əldə edir. Bu, işçilərin qüsurlarını görməsinə və özlərini daha yaxşı inkişaf etdirməsinə kömək edir. Bu da rəhbərliyin bu qüsurları aradan qaldırmaq üçün görülməli olan tədbirlərdən xəbərdar olmasına kömək edir.

2020-ci ildə işçilərimizin gələcək karyeralarını inkişaf etdirmək üçün təlim proqramı təşkil etdik. Bu proqram hal-hazırda rəhbər işçilər və baş rəhbərliyin istifadəsi üçün açıqdır. Bu platforma təlimlərə, son tarixlərə, özünü inkişaf planına, irəliləməyə və digər müvafiq hədəflərə yol açır. Gələcəkdə bütün işçilərin istifadəsi üçün bu platformanı genişləndirməyi hədəfləyirik. Bu hər bir işçiyə öz inkişafını istənilən vaxt rahatlıqla izləməyə imkan verəcəkdir.

Texniki departamentin daxilində rotasiya proqramı yaratmağı planlaşdırırıq. Bu proqram işçilərin departament daxilində yerdəyişməsini təmin edəcək və işçilərin bilik mübadiləsini və inkişafını asanlaşdıracaqdır.

Şübhəsiz ki, işçilərimizin inkişafında təlim proqramlarının təşkil edilməsi böyük rol oynayır. COVID-19 pandemiyasının başlaması təlimlərin oflayn formatda keçirilməsi prosesində çətinliklər yaratdı, bu səbəbdən 2020-ci il üçün təlim saatları əhəmiyyətli dərəcədə azaldı. Pandemiya irəlilədikcə vəziyyətə uyğunlaşmağa və onlayn təlimlər keçirməyə başladıq. Təəssüf ki, mövzuları baxımından bəzi təlim növlərini onlayn formatda keçirmək daha çətindir. Pandemiyanın səbəb olduğu zərərləri azaltmaq üçün bizə təqdim olunan bütün resurslardan istifadə etməyi hədəfləyirik. GRI 404-1 GRI 404-2

# 7. İNSAN RESURSLARIMIZ

Sxem 16. Departamentlər üzrə cəmi təlim saatları




## 7.3. Kompensasiyalar və müavinətlər

Norm işçilərini vacib imkanlarla təmin etmək və əlverişli iş mühiti yaratmaq istəyir. İşçilərimizin motivasiyasını daha da artırmaq baxımından kompensasiyaların və müavinətlərin vacibliyini başa düşürük.

"Korn Ferry" ilə əməkdaşlıq çərçivəsində Norm ümumi qreydinq sistemi hazırlamışdır. Bu qiymətləndirmə sistemi artıq bonusların paylanması, vəzifə artımı məqsədləri və digər pul mükafatları üçün istifadə olunur.

Şirkətdə işçilərin məmnunluğunu yüksək səviyyədə saxlamaq üçün onları sosial müavinətlərlə təmin etməyə çalışırıq. Bütün işçilərimiz tibbi sığorta ilə təmin olunurlar. Yarım ştat işçilərə tam ştat işçilər ilə eyni müavinətlər verilir. Bundan əlavə, işçilərin ailələri də müavinətlərlə təmin edilir. Norm iş günü ərzində işçiləri pulsuz yeməklə də təmin edir. İşçilərin rahat şəkildə daşınması üçün istifadə edilə bilən servis avtobusları mövcuddur. Bəzi işçilərə dərəcələrinə görə maşın və telefonlar verilir. Əcnəbi işçilər ildə bir dəfə öz ölkələrinə getmək üçün qalma və pulsuz gediş-gəliş biletləri ilə təmin olunurlar. GRI 401-2 GRI 102-37





# 7. İNSAN RESURSLARIMIZ

2020-ci ildə Azərbaycan İkinci Qarabağ müharibəsinin çətinlikləri və nəticələri ilə üzləşdi. Dörd əməkdaşımız bu müharibədə iştirak etmişdir. Bundan əlavə, Norm müharibənin təhsirini minimuma endirilməsində və cəmiyyətə kömək edilməsində rol oynadı. Qazilər və şəhid ailələri xüsusi bağlamalar, pul kompensasiyaları və tibbi müalicə ilə təmin edilmişdir.

COVID-19 pandemiyasının başlaması işçilərimiz üçün kompensasiya etmək və qarşısını almaq istədiyimiz risklər yaratdı. İşçilərimizin rahatlığı üçün mümkün olan sahələrdə məsafədən işləməyə və iş yerində işləməyin lazım olduğu sahələrdə isə növbə ilə işləməyə keçid etdik. Virusla bağlı bütün məsələlər hər bir işçiyə elektron poçtla göndərilir. İşçilərimizin təhlükəsizliyi üçün sayı artırılmış servis avtobusları, pul kompensasiyaları, işçilərin şəxsi nəqliyyat vasitələri üçün yanacaq kartları, COVID-19 infeksiyasına yoluxduqdan sonra pulsuz COVID-19 testi və müalicə xərclərinin kompensasiya edilməsi kimi imkanlar irəli sürürük.

## 7.4. İşçilərin iş yerindən məmnunluğu

İşçilərimizin məmnuniyyətinə önəm verir və bunun böyük bir hissəsinin işçilərin müvafiq şəkildə cəlb olunması olduğunu düşünürük. Bu baş rəhbərliyimizə işçilərini və Şirkəti daha yaxşı başa düşməyə kömək etməklə yanaşı şəffaf mühit yaradır.
2020-ci ildə işçilərin məmnunluğu sorğusunu həyata keçirməyə davam etdik. Sorğuda işçilərin şirkətdəki əsas məsələlərdən məmnunluğu ilə bağlı səkkiz sual var idi.
Səkkiz sahədən altısı üzrə işçilərin məmnunluq dərəcəsi 80% və ya daha yüksək olmuşdur. Respondentlər də şərh yaza bilirlər. Bu sorğu işçilərimizə narahatlıqlarını dilə gətirmək, rəhbərliyimizə isə Şirkəti inkişaf etdirmək şansı verir.
Bundan əlavə, mütəmadi olaraq ümumi iclas keçiririk. Burada işçilər İnsan Resursları komandası qarşısında narahatlıqlarını ifadə edə bilərlər. İclasda problemlər qeyd edilir, müvafiq şəkildə aradan qaldırılır və baş rəhbərlik bu barədə məlumatlandırılır. İşçilər suallarını menecerlərinə, Norm-un müvafiq ofislərinə və ya Etika Komitəsinə ünvanlaya bilərlər. GRI 102-33

## 7.5. Müxtəliflik və inklüzivlik

Hər kəsin özünü dəyərli və hörmətli hiss etdiyi iş yeri yaratmağı hədəfləyirik. Şirkətimizin bərabərlik və inklüzivliyə əsaslanması vacibdir və bu dəyərləri təbliğ etməyi hədəfləyirik. İşçilərimizin bərabər hüquqlarının olmasının tərəfdarıyıq və heç bir ayrı-seçkiliyə yol vermirik. GRI 406-1
Fəaliyyətlərimizin xüsusiyyətlərinə görə az sayda qadının işləməsi məqsədəuyğun olsa da, Sxem 18-də şirkətdə işləyən qadınların sayında cüzi artım olduğunu görə bilərik.

# 7. İNSAN RESURSLARIMIZ

Sxem 17. Kişi işçilərin ümumi sayı




Sxem 18. Qadın işçilərin ümumi sayı




Yaş qrupları arasında ən çox təmsil olunan qrup 30-50 yaş arası işçilərdir. Sxem 19 işçilərin yaşa görə ümumi sayını nümayiş etdirir.





# 7. İNSAN RESURSLARIMIZ

Sxem 19. İşçilərin yaşa görə ümumi sayı




Norm olaraq təcrübə və sağlamlıq vəziyyətindən asılı olmayaraq hər kəsə işləmək imkanı yaratmaq istəyirik. Azlıqları işlə təmin edir və ümumi işçilərimizin 2%-ni təşkil edən əmək qabiliyyəti məhdud olan işçilərimiz üçün lazımı şərait yaradırıq. Həmçinin, 2020-ci ildə məcburi köçkünlərin sayı 19 nəfər təşkil edib ki, bu da keçən ildəkindən çoxdur. GRI 102-8



# CƏMİYYƏTƏ DƏSTƏK

# 8

8.1. CƏMİYYƏTİN İNKİŞAFI ÜÇÜN AYRILMIŞ SƏRMAYƏLƏR

8.2. USTALAR KLUBU

8.2.1. 2020-Cİ İLDƏ KLUBUN FƏALİYYƏTİ

8.2.2. RƏQƏMSALLAŞDIRMA



# 8. CƏMİYYƏTƏ DƏSTƏK

BMT-nin Dayanıqlı İnkişaf məqsədlərinə töhfəmiz



Sosial tədbirlərlə bağlı düşüncələrimiz fəaliyyət göstərdiyimiz regionlardakı insanlara kömək etmək və həyat səviyyəsini yaxşılaşdırmaq fikrinə əsaslanır. Şirkət koordinasiyalı iqtisadi, ekoloji və sosial inkişafa nail olmaq üçün icmalarla birlikdə inkişafı hədəfləyərək icma yönümlü əməliyyatları fəal şəkildə dəstəkləyir və ictimai rifah üçün görülən işlərə töhfə verməyə çalışır.

## 8.1. Cəmiyyətin inkişafı üçün ayrılmış sərmayələr

2020-ci ildə də sosial fəaliyyətlərə sadiq qalmağa və bir hissəsi olduğumuz cəmiyyətin qalan hissəsi ilə mehriban münasibətlər qurmaq üçün yaxşı korporativ vətəndaş kimi işləməyə davam edirik. Cəmiyyətin inkişafı üçün ayırdığımız sərmayələr yerli icmanın infrastrukturun və inşaat sektorunun inkişafına dəstək, təhsil və iqtisadi inkişaf proqramlarına sponsorluq və sosial tədbirlərin təşkili kimi əsas ehtiyaclarını qarşılayır. Bu baxımdan əvvəlki illərlə müqayisədə natura şəklində yatırımlar, fondlar, ianələr və xeyriyyəçilik fəaliyyətləri ilə çəkilən sosial xərclər əvvəlki hesabat ilinə görə yeddi dəfə artmışdır. GRI 102-12 GRI 203-1 GRI 204-1

**2 milyon AZN**
Sərmayə ayrılmışdır

Norm fəaliyyət göstərdiyi sahələrdə bölgələrə xeyriyyə yardımı edir. Aşağıdakı diaqram Şirkətin 2020-ci ildə həyata keçirdiyi sosial fəaliyyətlərin əhatə dairəsini göstərir. GRI 413-1



# 8. CƏMİYYƏTƏ DƏSTƏK

Cədvəl 3. Norm-un sosial yardım göstərdiyi əsas sahələr

| Seçilmiş sosial təşəbbüslər | |
|---|---|
| İnfrastrukturun inkişafı | Bölgələrin sakinləri ilə mütəmadi olaraq əlaqə qurmağın və ərazilərdəki və yerli icmaların maraqlarına diqqət yetirməyin vacibliyini anlayırıq. Bu baxımdan Norm-un fərqli bölgələri sementlə təmin edərək və bərpa işlərinin xərclərini qarşılayaraq sosial-konstruktiv dəstəyi davam etdirmək üçün bir sıra tədbirlər həyata keçirdiyini xatırlatmaq vacibdir. |
| Sponsorluq | Norm sponsorluq fəaliyyətlərinə xüsusi diqqət ayırır və elm, təhsil və yerli film sənayesinin inkişafına yönəlmiş layihələrə böyük dəstək göstərir. 2020-ci ildə Norm bu istiqamətdə fəaliyyətlərini davam etmişdir:<br>• Şirkət maarifləndirici televiziya proqramlarına sponsorluq etməyə davam edir;<br>• Norm həmçinin sponsorluq edərək yerli film istehsalı sənayesini dəstəkləməyə başladı. |
| İcmanın cəlb olunması | Şirkət yaşlı, tənha və aztəminatlı işçilərə xüsusi diqqət və qayğı göstərir. Bu fəaliyyətlər daxilində Şirkət hər kəsi yaşlı və tənha, eləcə də xüsusi diqqət və qayğıya ehtiyacı olan işçilərə qarşı diqqətli davranmağa dəvət edir:<br>• Norm Binə qəsəbəsindəki və Qaradağdakı 350 aztəminatlı ailəyə ərzaq yardımı göstərmişdir;<br>• Müqəddəs Qurban Bayramında Qaradağdakı 100 ailəyə hədiyyə və ərzaq məhsulları göndərildi. |
| COVID-19 ilə bağlı | Şirkət pandemiya vəziyyətini həll edilməli qlobal problem kimi görür və COVID-19-a qarşı səyləri dəstəkləmək üçün müxtəlif təşəbbüslər göstərir. Beləliklə:<br>• Şirkət Koronavirusla Mübarizəyə Dəstək Fonduna bir milyon AZN bağışladı;<br>• Norm-un Ustalar klubunun üzvlərinə onlayn təlimlər keçilir, onlara xüsusi qoruyucu vasitələr paylanır və şəxsi gigiyena və sosial təcrid qaydaları haqqında məlumat verilir;<br>• Norm həmçinin müştərilərini tibbi maskalar və dezinfeksiyaedici maddələrlə təmin edərək tərəfdaş şirkətlərini dəstəkləyir və infeksiyanın qarşısını almaq üçün özünütəcrid qaydalarını tətbiq etməyə çağırır. |
| Ekoloji layihələr | Fəaliyyət göstərdiyi dövr ərzində Norm ətraf mühitlə bağlı kompaniyalar keçirilmişdir və bu kompaniyalar işçilər tərəfindən sevilən korporativ mədəniyyətimizin bir hissəsidir. Bu tədbirlər çərçivəsində 2020-ci ildə işçilərimiz və tərəfdaşlarımız zavod ərazisinə ənənəvi olaraq ağac əkməyə davam etmişdir. |
| Davamlı münasibətlər | Partnyor şirkətlər ilə davamlı olaraq əməkdaşlıq etmək üçün Norm Azərbaycanda Sement Assosiasiyasının yaradılmasına təşəbbüs göstərdi. Assosiasiyanın fəaliyyətləri üçün planlaşdırılan əsas dayanıqlı inkişaf məqsədlərinə təhlükəsizlik tədbirləri, tullantıların idarə olunması, dairəvi iqtisadiyyat, məlumat mübadiləsi və sement sənayesinin inkişafına dəstək aiddir. |



Dayanıqlı inkişaf haqqında hesabat

8. CƏMİYYƏTƏ DƏSTƏK

## 8.2. Ustalar klubu

Əsas prioritetimiz olan son istifadəçilərin – əsas maraqlı tərəflərimizin rəy və fikirləri ilə məhsullarımızın müştəriləri və istifadəçiləri ilə dərin əlaqələr qurmağa imkan verən kommunikasiya kanalları yaradırıq. Bu baxımdan, son 5 il ərzində Ustalar klubu məhsullarımızın xüsusiyyətləri barədə məlumatlılığın artırılmasına həsr olunmuş ən böyük korporativ sosial layihələrimizdən biri kimi inkişaf etmişdir. Klubun fəaliyyəti məhsulların keyfiyyəti və istifadəsi ilə bağlı ilk rəyləri almağa imkan verir. Klub tərəfindən keçirilən çoxsaylı tədbirlərə və sosial proqramlara baxmayaraq, əsas prioritetimiz eyni olaraq qalır; bilik və bacarıqların artırılmasında icmamıza dəstək olmaq və ustaları sosial öhdəliklərdə iştirak etməyə təşviq etmək. Klubun uğurlu fəaliyyəti nəticəsində bu faktı vurğulamaqdan məmnunluq duyuruq ki, 2020-ci ildə klubda ustaların sayı xeyli artmışdır.

Sxem 20. Ustalar klubunun üzvlərinin illər üzrə sayı




Ustalarımız öz icmalarına entuziazm ilə yanaşırlar və biz onları klub daxilində yeni təşəbbüslər təqdim edərək öz icmalarına töhfə verməyə həvəsləndiririk.

# 8. CƏMİYYƏTƏ DƏSTƏK

## 8.2.1. 2020-ci ildə klubun fəaliyyəti

| Fəaliyyət | Təsvir |
|---|---|
| Klubun ustaları ilə görüşlər | Hesabat ili ərzində müxtəlif bölgələrdə dörd dəfə fəal ustalarla görüşlər keçirilmişdir. Görüşlərdə pandemiyanın fəaliyyətlərə təsiri və səfirlərin satış prosesində rolu da daxil olmaqla müxtəlif mövzular müzakirə edilmişdir. Məqsəd brend haqqında məlumatlılığı artırmaq, bölgələrdə satışları dəstəkləmək və qayğı və mənəvi dəstək nümayiş etdirmək idi. |
| Ustaların uşaqları üçün müsabiqə | Ustaların uşaqları üçün əl işləri müsabiqəsi keçirildi və qaliblər mükafatlandırıldı. |
| Ustalar üçün təlimlər | Təlimlər ustaların maarifləndirilməsi üçün müxtəlif mövzularda əsasən onlayn rejimdə aparıldı. |
| Sertifikatların və mükafatların verilməsi | Klub daxilindəki fəaliyyətlərinə görə fəal və sadiq ustalar mükafatlandırıldı. |
| Lotereya və bonus proqramı | Sement istifadəsinə görə bonus proqramı və lotereya proqramı həyata keçirilmişdir. Bu fəaliyyət dairəsi satışların artmasına dəstək oldu. |
| Korporativ bildirişlər | Ustalar telefon zəngi, e-poçt, SMS vasitəsilə korporativ tədbirlər, COVID-19 pandemiyasının təsirləri barədə məlumatlandırıldılar. |

## 8.2.2. Rəqəmsallaşdırma




2020-ci ildə Ustalar klubu üçün digər əsas prioritet rəqəmsallaşdırma təşəbbüsü olmuşdur. Ustalar klubunun fəaliyyətinə dair onlayn platforma klubun fəaliyyəti üçün fərqli perspektivlərdən həlledici bir addım idi:

* Ustalar klubunun rəqəmsallaşdırılması idarəetmə prosesinin səmərəliliyini və tutarlılığını artıra bilər;
* COVID-19 böhranı dövründə əlaqə və rəqəmsallaşma çox vacibdir;
* Mobil tətbiq Şirkətə böyük məlumatlarla işləmək imkanı verə bilər;
* Platforma brend ilə ustalar arasında əlaqəni gücləndirəcəkdir.

Bu meyarları nəzərə alaraq, Norm yeni mobil tətbiqini – "Loyalist" platformasını klub üzvlərinə təqdim etdi. Tətbiqdə məlumat mübadiləsi aparmaq, klubun çox sayda əməliyyat komponentlərinə daxil olmaq imkanı mövcuddur.





# 8. CƏMİYYƏTƏ DƏSTƏK

Sxem 21. "Loyalist" mobil tətbiqinin funksionallıqları



# NORM-DA TƏHLÜKƏSİZLİK

9

9.1. ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ MƏDƏNİYYƏTİ

9.2. İŞ YERINDƏ SAĞLAMLIQ VƏ ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ TƏLİMLƏRİ

9.3. ƏMƏYİN TƏHLÜKƏSİZLİYİNİN İDARƏ EDİLMƏSİ

9.4. PEŞƏ SAĞLAMLIĞI VƏ ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

9.5. PANDEMİYA ZAMANI TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ



# 9. NORM-DA TƏHLÜKƏSİZLİK

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) töhfə verilməsi

**Norm beynəlxalq səviyyədə tanınmış Peşə Sağlamlığı və Əməyin Təhlükəsizliyini İdarəetmə Sistemi Tələmatlarına (ISO 45001: 2018) uyğunluğu təsdiqləyən sertifikatı**

## 9.1. Əməyin təhlükəsizliyi mədəniyyəti

Norm-da bütün maraqlı tərəflərimizin Sağlamlığının və Təhlükəsizliyinin (ST) qayğısına qalırıq. Fəaliyyətimiz zamanı yarana biləcək zərərli və təhlükəli elementlərin azaldılması və aradan qaldırılması siyasətinə sadiqik. Bizim SƏTƏM (Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Ətraf Mühit) və VİS (Vahid İdarəetmə Sistemi) departamentimiz əməliyyatlarımızda təhlükəli elementlərin aşkar olunması, araşdırılması və qarşısının alınması kimi əsas məsuliyyəti daşıyan, SƏTƏM məsələlərindən məsul olan əsas orqandır. Departament hər kəsin KSƏTƏM (Keyfiyyət, Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühit) siyasətimizdə müəyyən edilmiş SƏTƏM normalarına uyğun işləməsini təmin edir. SƏTƏM normalarına tam uyğunluğumuzu təsdiqləmək üçün SƏTƏM ilə əlaqəli riskləri daha yaxşı müəyyənləşdirməyə və qarşısını almağa kömək edən gündəlik yoxlamalar aparırıq.

**Ölüm hallarının olmadığı 14-cü ilimiz**

Fəaliyyətə başladığımız gündən bəri, Norm-da ölümlə nəticələnmiş heç bir halın qeydə alınmadığını xatırlatmaqdan qürur duyuruq. GRI 102-21 GRI 403-1

Rəhbərliyimiz SƏTƏM fəaliyyətimizdə fəal iştirak edir. Təhlükəsizlik məsələləri Direktorlar Şurasının rüblük iclaslarında müzakirə olunan əsas mövzulardan biridir. Rəhbərliyimiz Norm-da SƏTƏM məsələlərinin əhəmiyyətinin çatdırılmasında əsas rol oynayır. Hər bir rəyin vacib olduğundan və hər bir işçinin dəyişiklik edə biləcəyindən əminik. Norm əməyin təhlükəsizliyinə dair cari məsələlər barədə rəhbərliyi məlumatlandıran bir mexanizm işləyib hazırlamışdır. Buna kömək etmək üçün SƏTƏM komandamız Təhlükəsiz Fəaliyyət Kartı (SOC) sistemini tətbiq etməyə davam edir. SOC işçilərə hər hansı bir insident və ya təhlükəli vəziyyət, habelə müsbət müşahidələr barədə məlumat verməyə imkan yaradır. Bundan əlavə, işçilər təkliflər verə və həll yollarını tövsiyə edə bilərlər. GRI 403-4

Sxem 22. SOC hesabatlarının təqdim edilmə prosesi



# 9. NORM-DA TƏHLÜKƏSİZLİK

2020-ci ildə SOC vasitəsilə 20 şikayət alınmış, bütün şikayətlər həll edilmişdir. SOC-un istifadəsini və işçilərin cəlb olunmasını təşviq etmək üçün işçilərin uğurlarının tanınması üzrə aylıq proqramı həyata keçirməyə davam edirik və bu proqram SOC vasitəsilə qeydə alınmış ən səmərəli və yaradıcı həlli təklif edən işçinin mükafatlandırılmasını nəzərdə tutur. GRI 403-1 GRI 403-4 GRI 403-6

## 9.2. İş yerində sağlamlıq və əməyin təhlükəsizliyi təlimləri

SƏTƏM standartlarına tam riayət etmək üçün məlumatlılığı artırmaqla və işçilərimizə bütün lazımi məlumatları verməklə, Norm-da sağlamlıq və əməyin təhlükəsizliyi ilə bağlı vəziyyətin təkmilləşdirilməsini dəstəkləyirik. Norm-da əməyin təhlükəsizliyi mədəniyyətini artıran müntəzəm təlim kurslarımızla bunu həyata keçirməkdə qərarlıyıq. Təəssüf ki, COVID-19 pandemiyasının baş verməsi səbəbindən bəzi təlimlər onlayn şəkildə həyata keçirilsə də, illik təlim planımıza əməl edə bilmədik.

2020-ci ildə iş yerində sağlamlıq və əməyin təhlükəsizliyi ilə bağlı aşağıdakı təlimləri verdik: GRI 403-3 GRI 403-5

- Fövqəladə hallar, peşə sağlamlığı və əməyin təhlükəsizliyi təlimi;
- OHSAS 18001 - ISO 45001 üzrə keçid təlim;
- Təcili yardım hazırlığı;
- NEBOSH Prosesin təhlükəsizliyi təlimi;
- Qapalı sahələr üçün təsdiqlənmiş qaz testi cihazı;
- Radiasiya təhlükəsizliyi;
- Qaz balonlarının təhlükəsizliyi və yoxlama;
- Ətraf mühitin mühafizəsi;
- API Q1;
- ISO 37001:2016 –Rüşvətxorluğa qarşı mübarizənin idarə edilməsi sistemi;
- ISO 9001 Baş auditor.

## 9.3. Əməyin təhlükəsizliyinin idarə edilməsi

Standartlara və normalara tam uyğunluq təhlükəsiz iş mühitinin təmin edilməsinin ən vacib cəhətlərindən biridir. Azərbaycan Respublikasının Əməyin mühafizəsi haqqında Qanununa və Əmək Məcəlləsinə, Beynəlxalq Əmək Standartlarına, Peşə sağlamlığı və Əməyin təhlükəsizliyi qaydalarına tam cavab veririk. Biz, həmçinin Peşə Sağlamlığı və Əməyin Təhlükəsizliyini İdarəetmə Sistemi standartına uyğun olaraq işləyirik: ISO 45001: 2018. 2020-ci ildə ISO və API auditlərindən keçmişik və hazırda aşkar edilmiş faktları həll etmək istiqamətində çalışırıq. GRI 403-1

Biz fəaliyyətimiz dövründə yaranan xəsarətləri minimuma endirməyə çalışırıq. Norm-da artıq 14 ildir ki, heç bir ölüm halı qeydə alınmamışdır. Təəssüf ki, iş günlərimizin itirilməsi ilə nəticələnən iki xəsarət halımız olmuşdur. Hadisələrin mahiyyəti səbəbindən LTI-nin (itirilmiş iş günləri əmsalı) ağırlıq dərəcəsi 138.24%-ə yüksəldi (1,000,000 iş saatı üzrə). Qəzaların səbəbləri araşdırıldı və gələcəkdə bənzər qəzaların baş verməməsi üçün təhlükəsizlik tədbirləri alındı. Bu eskalasiyanı azaltmaq üçün əlimizdən gələni edirik və hər zaman təhlükəsizlik tədbirlərini yaxşılaşdırmağa çalışırıq. Şəkil 2-də 2018-2020-ci illər üçün əsas sağlamlıq və təhlükəsizlik göstəricilərimizin siyahısı təqdim edilir. GRI 403-9 GRI 403-10





# 9. NORM-DA TƏHLÜKƏSİZLİK

Cədvəl 4. Sağlamlıq və təhlükəsizlik üzrə göstəricilər

| Sağlamlıq və təhlükəsizlik | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| İş yerində bədbəxt hadisələrin əmsalı (1,000,000 iş saatı üzrə) | 0 | 0 | 0 |
| Əmək qabiliyyətinin müvəqqəti itirilməsi ilə nəticələnən zədələrin tezlik əmsalı (1,000,000 iş saatı üzrə) | 0 | 1.81 | 4.07 |
| İtirilmiş iş günlərinin ağırlıq əmsalı (1,000,000 iş saatı üzrə) | 0 | 10.86 | 138.24 |
| Cəmi hadisələrin tezlik əmsalı (1,000 işçi üzrə) | 10.4 | 10.38 | 13.88 |

## 9.4. Peşə sağlamlığı və əməyin təhlükəsizliyi risklərinin

Bir istehsal şirkəti olaraq istehsal dövründə bir çox risklərlə qarşılaşırıq. Əməkdaşlarımızın yarada biləcəkləri riskləri yaxşı bildiyindən əmin olmaq üçün hər bir tapşırığa aid işçilərə riayət edilməli olan sağlamlıq və təhlükəsizlik qaydalarını sadalayan iş təlimatları verilir.

Fəaliyyət dövrümüzdə nümunə yaradaraq ciddi xəsarətlərə səbəb ola biləcək altı əsas risk növünü müəyyən etmişik:

1. Yanğın və partlayış;
2. Siklonda tıxanmaların əl ilə təmizlənməsi ilə bağlı risklər;
3. Qapalı yerlərdə aparılan işlər;
4. Toz və vibrasiya;
5. Xammal və hazır məhsulun daşınması ilə bağlı risklər;
6. Hündürlükdə aparılan işlər.

Hər bir risk növü üzrə bütün işçilərimizin riayət etməli olduğu müəyyən mexanizmlər, təşəbbüslər və həllər hazırlamışıq. Hadisələri düzgün qeydə almağımıza, məlumat verməyimizə və müvafiq tədbirlər görməyimizə kömək etmək üçün LTI və İlk Yardım hallarının qeydiyyatını aparırıq. GRI 403-2 GRI 403-3 GRI 403-7

## 9.5. Pandemiya zamanı təhlükəsizlik tədbirləri

COVID-19 pandemiyasının baş verməsi, şübhəsiz ki, Norm- da sağlamlıq və təhlükəsizliklə bağlı müəyyən risklər yaratmışdır.

Pandemiya ilə bağlı riskləri minimuma endirə bilmək üçün profilaktik tədbirləri tez bir şəkildə qəbul etdik. Ofisdə, zavodda çalışan işçilərimiz və əməkdaşlıq etdiyimiz üçüncü tərəflər üçün ətraflı rəhbər prinsiplər və təlimatlar hazırladıq. Bütün işçilərimiz COVID-19 ilə əlaqədar məcburi informativ təlimatları almalıdırlar.

Hər kəsin virus və COVID-19 tədbirlər planı barədə məlumatlı olmasını təmin etmək üçün COVID-19 ilə bağlı bütün əməkdaşlarla elektron poçt vasitəsilə müntəzəm qaydada əlaqə saxlayırıq.

Virusun yayılmasının qarşısını almaq üçün məsafədən iş rejiminə keçmişik. Məsafədən iş rejiminə keçid əvvəlcədən hazırlanmış, SƏTƏM və VİS departamenti tərəfindən hazırlanmış Fövqəladə Biznes Planımıza uyğun olaraq aparılmışdır və bu səbəbdən, məsafədən iş rejiminə keçid asanlıqla həyata keçirilmişdir.

COVID-19 ilə əlaqədar olaraq servis avtobuslarımızın istifadəsi dəyişdirilməli oldu. Servis avtobuslarımızın istifadəsi üçün ətraflı təlimat işləyib hazırladıq.

# 9. NORM-DA TƏHLÜKƏSİZLİK

İçəridə təhlükəsiz məsafəni qorumaq üçün servis avtobuslarının sayı artırıldı. Servis avtobuslarına daxil olmadan əvvəl işçilərin hərarəti yoxlanılmalı və işçilərin avtobuslara maskasız girməsinə icazə verilməməlidir. Avtobuslar sürücülər tərəfindən mütəmadi olaraq dezinfeksiya edilməlidir. Sərnişinlər servis avtobuslarının içərisində sosial məsafəni gözləməlidirlər.
Virusa qarşı ən yüksək sağlamlıq və təhlükəsizlik səviyyəsini təmin etmək üçün aşağıdakı tədbirləri də həyata keçirdik:

- Bütün işçilərimiz üçün pulsuz COVID-19 testi;
- İş yeri, zavod, servis avtobusunun gündəlik dezinfeksiyası;
- Lövhələrdə məlumat xarakterli nişanlar;
- COVID-19 haqqında xəbərdarlıq e-məktubları;
- Bədən temperaturunun yoxlanılması;
- Əl təmizləyiciləri, maskalar və s. kimi ləvazimat;
- COVID-19 ilə bağlı profilaktik təlimlər.

COVID-19-a yoluxma ilə bağlı bütün hallardan xəbərdar olduğumuzdan əmin olmaq üçün COVID-19 xəstələrini diqqətlə qeydiyyata alır və virusla mümkün qədər yaxşı mübarizə aparmaq üçün lazım olan bütün tədbirləri diqqətdə saxlayırıq.

Sxem 23. COVID-19 üzrə statistika




2020-ci ilin may ayından etibarən 458 test keçirmişik. Yuxarıdakı qrafikdə müşahidə edildiyi kimi, 73-ü tamamilə sağalmış, üçü sağalma mərhələsində olan 76 pozitiv COVID-19-a yoluxma hadisəsi qeydə almışıq. COVID-19-a yoluxma ilə bağlı ciddi hadisə baş verməmişdir. GRI 403-2 GRI 403-3 GRI 403-5 GRI 403-6 GRI 403-8
Norm-da işçilərimizin vaksinasiyası prosesini yaxından izləməyi və asanlaşdırmağı planlaşdırırıq. Həmçinin, işçilərimizin bu mövzuda məlumatlı olduqlarına əmin olmaq üçün peyvəndləmə ilə bağlı təlimlər keçirməyi hədəfləyirik.





# ƏTRAF MÜHİTİN İDARƏ OLUNMASI

# 10


10.1. İQLİMƏ TƏSİR

10.2. ATMOSFER ÇİRKLƏNDİRİCİLƏRİ

10.3. SU İSTEHLAKI

10.4. TULLANTILARIN İDARƏ EDİLMƏSİ

10.5. TORPAQ VƏ BİOMÜXTƏLİFLİK




## 10.ƏTRAF MÜHİTİN İDARƏ OLUNMASI

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) töhfə verilməsi



Biz Norm-da biznes proseslərimizi qlobal ətraf mühitin dayanıqlılığına sadiqliyimizi nümayiş etdirən və ekoloji göstəricilərimizi davamlı olaraq yaxşılaşdıran qaydada idarə etməyə can atırıq. Fəaliyyətimizin mənfi təsirini azaltmaq və başqalarını da buna təşviq etməklə sement sənayesində lider bir nümunə olmaq üçün fəal şəkildə çalışırıq.

Norm ətraf mühitə təsirini azaltmağa və biznes proseslərimizin və əməliyyat metodlarımızın ayrılmaz hissəsi kimi ekoloji göstəricilərini daim yaxşılaşdırmağa çalışır. Norm-un ekoloji prinsiplərə uyğunluğuna, ətraf mühit amillərinin nəzərə alınmasına, insanların cəlb olunmasına və səmərəli, uzunmüddətli idarəetməni təmin etmək üçün monitorinqlərə əsaslanır.

Sxem 24. Əsas ekoloji prinsiplərimiz




Nəticələrin monitorinqi və yaxşılaşdırılması Norm-un bugünkü ekoloji sisteminin səmərəli fəaliyyətini təmin etmək üçün uzunmüddətli dayanıqlı inkişafın əldə edilməsində bütün maraqlı tərəflərin xeyrinədir.

Hüquqi və tənzimləyici tələblərdən başqa ətraf mühit qarşısında daşıdığımız məsuliyyəti dərk edirik. Beləliklə, ekoloji təsirin idarə edilməsi prosesləri Azərbaycan Respublikasının qüvvədə olan qanunları və qaydalarına uyğun olaraq həyata keçirilir. Eynilə, ekoloji təsirin idarə olunması proseslərimiz Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bütün müvafiq sərəncamlarına və Qlobal Sement və Beton Assosiasiyasının (GCCA) ətraf mühitin qorunması qaydaları kimi ən yaxşı sənaye təcrübələrinə uyğundur. GRI 307-1

Norm ətraf mühiti idarəetmə sistemini, xüsusən də beynəlxalq standartların tələblərinə uyğunlaşmaqla, davamlı olaraq təkmilləşdirir. 2020-ci ildə fəaliyyətimizin ətraf mühitə təsirini tənzimləmək bacarığımızı nümayiş etdirən ISO 14001 Ətraf Mühitin İdarə Edilməsi Standartı üzrə sertifikatı əldə etdik.

# 10.ƏTRAF MÜHİTİN İDARƏ OLUNMASI

Sxem 25. ISO 14001 sertifikatının əsas üstünlükləri




Norm-un KSƏTƏM üzrə siyasəti və ətraf mühit prosedurları ətraf mühitlə əlaqəli əsas məsələlərin həllində mövqeyimizi müəyyənləşdirən və fəaliyyətimizin ətraf mühitə təsirini minimuma endirmək, çirklənmənin qarşısını almaq və fəaliyyətimizin idarə olunmasını daima təkmilləşdirmək üçün bir öhdəlik müəyyən edən əsas mexanizmlərdir.
Bununla yanaşı, daxili qaydalarımızın tətbiqi Şirkətin istehsal proseslərinin ətraf mühitə təsiri ilə bağlı məsuliyyətini idarə etmək üçün qısa, orta və uzunmüddətli öhdəliklərimizi yerinə yetirmək imkanı verir. Şirkətin ətraf mühitə təsiri ətraf mühitə təsir edən müxtəlif aspektləri, o cümlədən enerji və su istehlakını, xammal, təhlükəli və təhlükəli olmayan tullantıları, çirkləndirici tullantıları və biomüxtəlifliyi əhatə edir.





# 10.ƏTRAF MÜHİTİN İDARƏ OLUNMASI

## 10.1. İqlimə təsir

İqtisadiyyat inkişaf etdikcə və zənginləşdikcə, sement məhsullarına tələbat sürətlə artır. Norm istehsal proseslərindən, yanacaq istifadəsindən və məhsulun son istifadəsindən karbon intensivliyini azaldaraq öz fəaliyyətini yaxşılaşdırmağa can atır. Beləliklə, ekosistemlərə, yerli əhalinin həyat keyfiyyətinə və istehlakçı seçimlərinə təsir edən iqlim dəyişikliyi ilə mübarizə bizim üçün əsas prioritet olaraq qalır.GRI 305-4
Norm-un istixana qazı tullantılarının (İEYQ emissiyaları) əksəriyyəti iki mənbədən – yanacağın yandırılması və klinker istehsalından qaynaqlanır. Hər il klinker faktorunu azaltmaqla məhsullarımızın keyfiyyəti üzərində çalışmağa davam edirik. 2020-ci ildə C və S sement sinifləri üçün klinker faktorunu son iki ilə nisbətən azaltmağa müvəffəq olduq. Əlavə olaraq, istehlakçı tələbinə əsaslanaraq lazımi keyfiyyət testlərindən müvəffəqiyyətlə keçən yeni bir məhsul - Class L 500 məhsulunu təqdim etdik. Həmçinin, neft quyuları üçün sementin istehsalı üçün API auditinin əsas hissəsini uğurla keçdik və 2021-ci ildə API Spec Q1 sertifikatı alacağımızı gözləyirik.

Cədvəl 5. Sement növləri üzrə klinker faktoru

| # | Klinker faktoru | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|
| 1 | Ortalama klinker faktoru, % ilə | **78.2** | **78.7** | **77.64** |
| 1.1 | Klass A | 76.60 | 77.39 | 78.33 |
| 1.2 | Klass B | 64.66 | 65.57 | 65.62 |
| 1.3 | Klass C | 86.95 | 87.55 | 86.19 |
| 1.4 | Klass S | 86.77 | 87.78 | 84.80 |
| 1.5 | Klass 1 | 0.00 | 87.55 | 91.23 |
| 1.6 | Klass L | - | - | 84.21 |

Əsasən müasir yandırma texnologiyalarından istifadə edərək və proseslərimizin səmərəliliyini artıraraq məhsulun hər tonu üçün daha az enerji sərf etməyə çalışırıq. Müəssisəmiz öz fəaliyyətini zərərli qaz emissiyalarının azaldılması qaydalarına (Azərbaycan Respublikasının Ətraf mühitin mühafizəsi haqqında qanunu və Ətraf mühitin mühafizəsi üzrə qətnamə) uyğun olaraq həyata keçirir. Norm mənfi təsirinin digər yanacaq mənbələrindən əhəmiyyətli dərəcədə az olduğu üçün istehsalda təbii qazdan istifadə etməyə davam edir. Yenə də təbii qaz tükənən bir təbii qaynaq olduğundan yaxın gələcəkdə istehsalımızda alternativ mənbələrdən istifadə etməyi planlaşdırırıq. Bu məqsədlə, Norm ekosistemə mənfi təsiri azaltmaq üçün alternativ yanacaq və xammal istifadəsi üçün müəyyən edilmiş variantların həyat qabiliyyətini qiymətləndirir, habelə külək, hidroelektrik və günəş enerjisi kimi alternativ mənbələrə keçid edilməsi ilə bağlı araşdırma aparır. GRI 302-1 GRI 302-4
2020-ci ilə qədər klinker istehsalı üçün istifadə olunan enerji daxil olmaqla, ümumi təbii qaz istehlakımız 139 milyon kubmetr təşkil etmişdir. Əvvəlki illərlə müqayisədə sement istehsalının genişləndirilməsi və yeni məhsul növünün tətbiqi səbəbindən birbaşa CO2 tullantılarında artım müşahidə olunmuşdur. Bundan başqa, pandemiya və məsafədən iş rejimi hər istehsal vahidi üzrə CO2 emissiyaları üzərində böyük təsirə malik olmamışdır. Cədvəl 6-da son üç il – 2018-2020-ci illər üçün xüsusi CO2 emissiyalarının həcmi təqdim olunur. GRI 305-1

# 10.ƏTRAF MÜHİTİN İDARƏ OLUNMASI

Cədvəl 6. Ümumi və xüsusi birbaşa CO2

| # | İEYQ emissiyaları | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|
| 1 | Ümumi birbaşa CO2 emissiyaları (ton/il) | 847,047 | 881,202 | 1,068,237 |
| 2 | Spesifik birbaşa CO2 emissiyaları (kq/ton sement məhsulu) | 564.9 | 568.6 | 570.53 |

Sement sektorunun karbon dioksid emissiyalarının təqribən 65%-i xammalın kalsinasiyası, əsasən əhəngdaşı kalsinasiyası ilə əlaqədardır. Qalan 35% -i yanacağın yanması ilə yayılır. Buna əsasən, Beynəlxalq Enerji Agentliyinin Dayanıqlı İnkişaf Ssenarisi əsasında hər ton sement üçün CO2 emissiyalarının azaldılması planını işləyib hazırlamağa davam edirik. GRI 305-5

Sxem 26. Tullantıların idarə edilməsi prosesi




Sement istehsalında karbon emissiyalarının azaldılmasının vacib yollarından biri alternativ enerji növlərindən istifadə etməkdir. Tədricən alternativ yanacaq və xammalın emalı üçün əlavə variantları nəzərdən keçirməyə davam edirik və qısa müddətdə alternativ klinker texnologiyası yaratmağı planlaşdırırıq. Beləliklə, 2030-cu ilədək CO2 emissiyalarını azaltmaq üzrə fəaliyyətimizə nail olmağa kömək edəcək alternativ enerji mənbələrinin istifadəsini Norm-da tətbiq etməyi hədəfləyirik.

## 10.2. Atmosfer çirkləndiriciləri

Ətrafımıza necə təsir göstərdiyimizə diqqət yetiririk və fəaliyyətimizin əhali üçün təhlükə yaratmamasını tənzimləyirik. Zavodumuzun yaşayış sahəsindən kənarda yerləşməsi yaşayış məntəqəsinə mənfi təsirləri minimuma endirməyə kömək edir. Ətraf mühitin monitorinqi prosesləri üçün optimal həll yollarını tapmağa can atmağımız və keyfiyyət öhdəliyimiz sement sənayesində bizi fərqləndirən cəhətdir.





# 10.ƏTRAF MÜHİTİN İDARƏ OLUNMASI

Üçüncü tərəf auditlərin aparılması üçün "AZECOLAB" ilə əməkdaşlığımız davam edir, onlar emissiyaların təhlili üzrə onlayn sistemimizin müstəqil yoxlamalarını aparırlar və tüstü qazların emissiyalarının müstəqil monitorinqini həyata keçirirlər. 2020-ci ildə aparılmış ən son təhlil tüstü qazı konsentrasiyası üzrə qiymətləndirmələrimizin dəqiqliyini və etibarlılığını təsdiqlədi. Bütün monitorinq proseslərinə əlavə olaraq toz və NOx emissiyalarını azaltmaq üçün AB direktivləri və məhdudiyyətləri əsasında daxili məhdudiyyətlərimizi və hədəflərimizi tənzimləməyə davam edirik.

Cədvəl 7. Norm-un istehsal prosesi nəticəsində havaya atılan çirkləndirici maddələr

| Hava çirkləndiriciləri | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Toz | | | |
| Cəmi toz emissiyaları, ton/il | 186,0 | 208,0 | 233.05 |
| Spesifik emissiyalar, q/ton klinker | 159,0 | 171,0 | 154.1 |
| NOx | | | |
| Cəmi emissiyalar, ton/il | 1,089 | 1,021 | 1,244.74 |
| Spesifik emissiyalar, q/ton klinker | 929,0 | 837,0 | 854,0 |
| Uçucu üzvi birləşmələr/Tetrahidrokannabinol[1] | | | |
| Cəmi emissiyalar, kq/il | 594,0 | 217,0 | 229,0 |
| Spesifik emissiyalar, q/ton klinker | 0.507 | 0.178 | 0.156 |

## 10.3. Su istehlakı

Norm olaraq su istehlakımızı azaltmağa və çirkab sularını tənzimləməyə çalışırıq. Azərbaycan Respublikasının su istehlakı ilə bağlı qanunlarına riayət edirik. Bundan əlavə, su istehlakını azaltmaq üçün təkrar istifadə və təkrar emal kimi müxtəlif üsullar tətbiq etməyə davam edirik.
İstehsalat proseslərimizdə üç növ sudan istifadə edirik:

1. İstehsalat prosesi üçün istifadə edilən su;
2. Suvarma üçün istifadə edilən su;
3. İnzibati məqsədlər üçün istifadə edilən su.

Cədvəl 8. Spesifik su istehlakı

| Suyun idarə edilməsi | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Spesifik su istehlakı, l/ton sement məhsulu | 52.4 | 36.6 | 34.2 |

2020-ci ildə su istehlakımızı yaxından izləməyə imkan verən su sayğacları quraşdırdıq. Rəhbərliyimiz su istehlakı ilə bağlı hesablamaların ardıcıl olaraq və hər ay izlənilməsini təmin edir və hər hesabat dövrünün sonunda fərqlərin təhlili aparılır. Son bir neçə ildə su istehlakını azaltmaq üçün fəal şəkildə müxtəlif təşəbbüslər həyata keçirmişik. Su ehtiyatlarının idarə edilməsi ilə bağlı müəyyənləşdirdiyimiz hədəflərimizə nail olmaq məqsədilə tullantı suları üçün bioloji tipli su emalı avadanlığı qurmuşuq. Axıdılan suyun təkrar emalı üçün sistemlər yaratmışıq və gündəlik fəaliyyətimizdə təkrar istifadə etmək üçün təkrar emal edilən suyun keyfiyyəti üzərində işləyirik. Əsas məqsədimiz təkrar emal edilən suyun inzibati və suvarma məqsədləri üçün istifadəsinə tam keçid etməkdir. GRI 303-1 GRI 303-5

# 10.ƏTRAF MÜHİTİN İDARƏ OLUNMASI

## 10.4. Tullantıların idarə edilməsi

Dayanıqlı inkişafa sadiqliyimizin bir hissəsi olaraq tullantıların yaranmasını minimuma endirməyə çalışırıq. Tullantıların idarə edilməsi daxili "Tullantıların İdarə edilməsi" prosedur ilə tənzimlənir.
Tullantılara bərk və ya maye halında olan bütün tullantılar (tullantı suları istisna edilməklə) aiddir və onlar yerli qanunvericiliyə və Norm-un inzibati fəaliyyətlərinə əsasən təhlükəli və təhlükəsiz olaraq müəyyən edilir. Həm təhlükəli, həm də təhlükəsiz tullantıları daxili qaydalara və yerli qanunvericiliyə uyğun olaraq saxlayırıq. 2020-ci ildə təhlükəli və təhlükəsiz tullantıların daşınması, təkrar emalı, emalı və zərərsizləşdirilməsi üzrə lisenziyalı peşəkar üçüncü tərəf xidməti göstərən "AA" ilə əməkdaşlığımızı davam etdiririk. Hazırda tullantıların yaranmasına nəzarət edir və bu barədə hesabat veririk. Tullantılar, su və atmosferə atılan emissiyalara dair 2-TG nömrəli rəsmi statistik hesabatları hazırlayır və Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göndəririk. GRI 306-2 GRI 306-4
Təhlükəsiz tullantılar bir-birindən ayrılır və şirkətin ərazisindəki xüsusi yerlərdə saxlanılır. Toplanan tullantılar iş prosesində xammaldan təkrar istifadə mexanizmlərinin səmərəliliyini artırmaq üçün ya satılır, ya da təkrar emal olunur.
2020-ci ildə təhlükəsiz tullantıların miqdarı azalmış və bu tullantıların yarısı təkrar emal edilmişdir. İş proseslərini optimallaşdıraraq, materialların keyfiyyətini yaxşılaşdıraraq və onları yenidən istifadə edərək təhlükəsiz tullantıların sayını azaldırıq. İşçilərimiz və podratçılarımız tullantıların düzgün şəkildə ayrılması və saxlanılması üçün məsuliyyətli istehlaka dair təlimlərdən keçirlər. Ofislərə və zavod ərazisinə təkrar emal və zibil qutuları yerləşdirilmişdir. Sxem 27-də 2020-ci ildəki fəaliyyətlərimiz nəticəsində yaranan təhlükəli və təhlükəsiz tullantıların ümumi sayı göstərilmişdir.

Sxem 27. Tullantıların idarə edilməsi– Tullantılar (ton) 2020








# 10.ƏTRAF MÜHİTİN İDARƏ OLUNMASI

## 10.5. Torpaq və biomüxtəliflik

Fəaliyyətimizin birbaşa və ya dolayı təsirinə məruz qala biləcək ekosistemləri qorumaq bizim üçün çox vacib məsələlərdən biridir. Bu məqsədlə yerli flora və fauna növlərinin mühitinə xələl gətirməmək üçün müvafiq nəzarət tədbirləri görürük. Fəaliyyətlərimizin, məhsullarımızın və xidmətlərimizin biomüxtəliflik üzərindəki əhəmiyyətli təsirini qeyd etmək üçün GRİ 304 Biomüxtəlifliyin açıqlanması standartının tələblərinə, tövsiyələrinə və təlimatına əməl edirik. Bundan əlavə, Azərbaycan Respublikasının qanunlarının tələblərini tətbiq edirik. Hesabat dövründə həm ətraf mühitə, həm də zavoda zərər vurmadan vulkan püskürməsi riskini azaltmağın ən effektiv yollarını axtarır və araşdırırıq. Eynilə, meşə ehtiyatlarını artırmaq və CO2 emissiyalarının azaldılması ilə bağlı plana töhfə vermək üçün 2020-ci ildə zavod ərazimizdə 100-dən çox ağac əkdik. Son bir neçə ildə istehsalat proseslərimizin Beynəlxalq Təbiətin Mühafizəsi Birliyinin Qırmızı Kitabına daxil edilmiş növlərə təsirini müəyyən etdik və Norm-un əməliyyat sahələrində adları bu siyahıda olan növlərin mövcud olmadıqlarını aşkarladıq. Ekoloji strategiyamız əhəngdaşı yataqlarının uzunmüddətli istifadəsindən sonra karxana ərazilərinin biomüxtəlifliyini bərpa etməkdir. Bu məqsədlə fəaliyyət planı işləyib hazırlayırıq, bu plan sayəsində hətta istehsal fəaliyyətləri tamamlanmazdan əvvəl karxanalarımızı bərpa edəcəyik.
Bundan əlavə, Norm ekoloji məsələlərdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə sıx əməkdaşlıq edir. Nazirlik biomüxtəlifliyə göstərdiyimiz mənfi təsirləri hər il izləyir və bu təsirlərin azaldılması ilə bağlı gördüyümüz tədbirləri effektiv hesab etmədikdə sorğular aparır. Hesabat dövrü ərzində heç bir belə sorğu olmamışdır. GRI 304-1 GRI 304-2 GRI 304-4



# MƏSULİYYƏTLİ İSTEHSAL

# 11


11.1. MÜŞTƏRİYƏ QAYĞI

11.2. TƏDQİQAT VƏ İNKİŞAF

11.3. MATERİALLARIN İSTİFADƏSİ VƏ DAİRƏVİ İQTİSADİYYAT

11.4. KEYFİYYƏTƏ ZƏMANƏT




# 11. MƏSULİYYƏTLİ İSTEHSAL

BMT-nin Dayanıqlı İnkişaf məqsədlərinə töhfəmiz



## 11.1. Müştəriyə qayğı

Tam müştəri məmnuniyyətinə nail olmaq və artmaqda olan ehtiyacları qarşılayan məhsullar təqdim etmək işimizdə uğur qazanmağımız və satışları artırmağımız baxımından vacibdir. Buna görə də, Norm müştəriləri ilə güvənə əsaslanan əlaqələr qurmağı əsas prioritet hesab edir. Müştəri yönümlü yanaşma tətbiq etmək məqsədilə effektiv kommunikasiya qurmaq üçün müştərilərlə əlaqələr yaratmağın müxtəlif yollarını təmin edirik.

Sxem 28. Müştərilərlə münasibətlərinin idarə olunma mexanizmləri



# 11. MƏSULİYYƏTLİ İSTEHSAL

## 11.1. Müştəriyə qaygı

Norm bazar tələbi və məhsulların təkmilləşdirilməsinə xüsusi diqqət ayıraraq marketinq tədqiqatları və müştəri məmnunluğu sorğusu aparmaqla müştəri münasibətlərinin strukturunu daha da möhkəmləndirməyi hədəfləyir. Artıq 7 ildir ki, mövcud bazar tendensiyalarını araşdırmaq, müştərilərin rəylərini almaq və müştərilərin qarşılanmayan tələbləri ilə bağlı imkanları anlamaq üçün davamlı olaraq marketinq sorğuları təşkil edirik. Bu baxımdan bu il də istisna olmamışdır və illik marketinq sorğusu aparmışıq. Tədqiqatın əsas məqsədi müştərilərin xidmətlər və məhsullarla əlaqədar məmnunluq və narazılıq səviyyələrinin qiymətləndirilməsi və müştərilərin təklifləri olmuşdur; sorğu üç müştəri qrupu arasında beş əsas istiqamətdə hazırlanmışdır.

Sxem 29. Sorğuya qatılan qruplar




Marketinq tədqiqatları və müştəri məmnunluğu sorğusunun nəticələri marketinq departamenti tərəfindən təhlil edilir; daha sonra isə öz sahələri ilə bağlı bütün problemləri həll etmək üçün hər bir departamentə göndərilir. Müştərilərdən daxil olan şikayətlərin idarə edilməsi prinsipimiz də eyni şəkildə həyata keçirilir; hər department şikayətlərin öz əməliyyatları ilə bağlı səbəbini araşdırır və tədbirlər planı hazırlayır. Nəticə etibarilə, müştərilərdən daxil olan şikayətlərin, xüsusən keyfiyyətlə bağlı olanların sayı 2020-ci ildə əhəmiyyətli dərəcədə azalmışdır. Bu cür aydın nəticələr müştəriləri münasibətlərinin idarə edilməsi sisteminin necə sistemli və effektiv qurulduğunu əks etdirir. Davamlı olaraq görülən bu intensiv tədbirlərin nəticələrinə əsasən, 2020-ci ildə ümumi müştəri məmnuniyyəti 94% ilə yüksək qiymətləndirilmişdir. Nəticədə, müştərilərdən daxil olan şikayətlərə baxılma və onların idarə edilməsi dərəcəsi əvvəlki ilə nisbətən 7% artmışdır.




Sxem 30. Həll olunmuş şikayətlər








# 11. MƏSULİYYƏTLİ İSTEHSAL

Şirkət müştərilərin biznes proseslərini asanlaşdırmaq və optimallaşdırmaq üçün qabaqcıl rəqəmsal həllər təqdim edərək mövcud tendensiyaya uyğun olaraq hərəkət edir. Bu baxımdan, hazırda mobil tətbiq vasitəsilə müştərilərimizi müxtəlif funksiyalarla təmin etmək üçün müştəri yönümlü proqram üzərində işləyirik. Mobil tətbiq qısa müddətdə istifadəyə veriləcək və mobil telefonlara yüklənə biləcək.



## 11.2. Tədqiqat və inkişaf

Rəqabət üstünlüyümüz və bazar lideri mövqeyimiz tədqiqat və inkişaf sahəsindəki fəaliyyətlər üçün göstərilən böyük səylərinin nəticəsidir. Bu fəaliyyətlər ekoloji cəhətdən təmiz məhsulların və tərkiblərin hazırlanması, istehsalat proseslərinin yaxşılaşdırılması, eləcə də bütün istehsal zəncirində enerji istifadəsinin minimuma endirilməsi və emissiyaların azaldılması məqsədilə həyata keçirilir. Yeni tərkiblərin hazırlanması və məhsulların təkmilləşdirilməsi proseslərini daha da sürətləndirmək üçün 2020-ci ildə yeni laboratoriya qurduq. Yeni laboratoriyanın fəaliyyətə başlaması 2021-ci ildə yeni məhsulumuz olan Quyu-tamponaj sementini təqdim etmək məqsədimizə uyğun bir qərar idi. API SPEC Q1 keyfiyyətin idarə edilməsi sisteminin standartlarına uyğunluğunu təsdiqləyən sertifikatın alınması üçün əksər audit tələblərinin 2020-ci ildə tamamlandığını qürurla elan edə bilərik.

## 11.3. Materialların istifadəsi və dairəvi iqtisadiyyat

Tullantılar və onların zərərsizləşdirilməsi yolları dayanıqlı inkişafın qarşısında duran çətinliklərindən biri hesab olunur və buraya iqlim dəyişikliyi, havanın keyfiyyəti, dairəvi iqtisadiyyat, suyun, torpağın istifadəsi və biomüxtəliflik kimi anlayışlar daxildir. Həll yolu olaraq dairəvi iqtisadiyyat prinsiplərini rəhbər tuturuq. Dairəvi iqtisadiyyat material və enerjinin istehsalı prosesini yavaşlatmaq, sonlandırmaq və azaltmaqla dəyərini itirən xammalın, komponentlərin və məhsulların minimum səviyyədə potensial zərər görməsini təklif edən regenerativ sistemdir. Tullantıların alternativ resurs olaraq məsuliyyətli şəkildə təkrar emalı və istifadəsi sənayedə ilkin materialların istehlakını azaldır və tullantıların təhlükəsiz şəkildə zərərsizləşdirilməsini təmin edir. Beləliklə, bu havanın çirklənməsinin qarşısını alır və havanın keyfiyyətinin yaxşılaşdırır, havanın keyfiyyətinə təsir edən emissiyaları və digər çirkləndiriciləri azaldır (karbonsuzlaşdırır), bu da öz növbəsində insanların həyat tərzini dəyişdirərək və daha az resursdan istifadəyə təkan verərək ekosistemin dayanıqlılığını artırmağı hədəfləyir. Norm olaraq Sxem 31-də qeyd edilən dairəvi iqtisadiyyatın əsas prinsiplərini dəstəkləyərək tullantıların utilizasiyası və minimuma endirilməsi ilə bağlı həll yoluna öz töhfəmizi verməkdən qürur duyuruq.

# 11. MƏSULİYYƏTLİ İSTEHSAL

Sxem 31. Təşkilat daxilində dairəvi iqtisadiyyatın dəstəklənməsi




Əməliyyatlarımızın əhatə dairəsini və ətraf mühitə təsirini nəzərə alaraq, bütün qərarları verərkən ekoloji aspektləri nəzərə almaq üçün böyük səy göstərdik. Ofislərə maarifləndirici afişalar və təkrar emal qutuları yerləşdirərək dairəvi iqtisadiyyat mədəniyyətini dəstəkləyirik. Bu şəkildə istehsalat sahələrimizdə tullantıları əhəmiyyətli dərəcədə azalda bilərik və ofis işçiləri də gündəlik fəaliyyətlərdə bu mədəniyyətə sadiq qalmalarını nümayiş etdirə bilərlər. Yuxarıda qeyd olunan addımlarla yanaşı, ətraf mühit üzərində mümkün qədər az təsiri olan təcrübələri tətbiq etməyə və resurslardan səmərəli şəkildə istifadə edərək cari istehsal fəaliyyətlərini optimallaşdırmağa davam edirik.

Norm-da resurslara qənaət edilməsinə, təkrar emal olunmuş materialların istifadəsinə və məhsulların istifadə müddəti bitdikdə təkrar emal olunmasına diqqət ayırırıq. Buna görə də 2020-ci ildə də tullantı materiallarını toplamaq üçün müvafiq üçüncü tərəflərlə tərəfdaşlığımızı davam etdirdik. 2020-ci ildə tətbiq olunan karantin rejimi səbəbilə zəruri alternativ və ikinci dərəcəli xammalı tapmalı və zavodumuza daşımalı olduq. Bu səbəbdən ümumi xammal üzrə istifadə olunan alternativ və ikinci dərəcəli xammalın payına dair rəqəmlərimizdə azalma müşahidə olunmuşdur. COVID-19-un təsiri azaldıqca bu göstəricilərin artacağını gözləyirik. GRI 301-1 GRI 301-2



Dayanıqlı inkişaf haqqında hesabat

11. MƏSULİYYƏTLİ İSTEHSAL

Sxem 32. Alternativ və ikinci dərəcəli xammaldan istifadə




## 11.4. Keyfiyyətə zəmanət

Yüksək keyfiyyətli sement istehsal etmək üçün keyfiyyətə qüsursuz şəkildə nəzarətin təmin edilməsi məqsədilə istehsal prosesinin hər mərhələsində məhsul nümunələrini emal və təhlil edirik. Norm-da keyfiyyəti idarəetmə sistemimiz DNV GL tərəfindən İSO 9001:2015 standartına uyğunluq sertifikatı ilə təsdiqlənmişdir. Keyfiyyətə Zəmanət/Keyfiyyətə Nəzarət Departamentimiz baza və obyektlərdə satın alınan məhsulların və göstərilən xidmətlərin keyfiyyətinə diqqət yetirir və onların tələb olunan standartlara və sertifikatlara uyğunluğunu nəzərdən keçirərək proseslərin keyfiyyətini təmin edir. Qablaşdırma prosesində keyfiyyət standartlarına riayət etmək məqsədilə təcrübəli təchizatçılarla əməkdaşlıq edirik. Etiketləmə və qablaşdırma EN 197, API SPEC Q1, API SPEC 10A və ISO 9001 standartlarına uyğun olaraq həyata keçirilmişdir. GRI 417-1

2020-ci ildə API auditi keçirilmiş və məhsullarımızın kimyəvi tərkibi və keyfiyyəti yoxlanılmışdır. Hal-hazırda API standartlarına uyğun olaraq bütün tənzimləyici siyasətlər və prosedurlarımızı optimallaşdırırıq və 2021-ci ildə sertifikat əldə etməyi gözləyirik.

# TƏCHİZAT ZƏNCİRİ

# 12

12.1. TƏCHİZATÇILARIN İDARƏ EDİLMƏSİ

12.2. TƏCHİZATÇI SEÇİMİ

# 12. TƏCHİZAT ZƏNCİRİ

BMT-nin Dayanıqlı İnkişaf məqsədlərinə töhfəmiz



Bütün tərəflərin uzunmüddətli, dayanıqlı və uğurlu gələcək üçün təchizatçılarla əməkdaşlığın vacibliyini başa düşürük. Bu baxımdan, iqtisadi, ekoloji və sosial cəhətdən məsuliyyətli davranan təchizatçıları seçərək dayanıqlı inkişafa təkan verən amilləri alışlarla bağlı vacib qərarlar verərkən nəzərə almağa çalışırıq. Satınalma prosesi zamanı ətraf mühitin qorunması, əməyin təhlükəsizliyi və sağlamlıq, eləcə də karbon emissiyalarının azaldılması kimi müvafiq amilləri nəzərə alaraq ətraf mühitə daha az təsir göstərən xammala, məhsullara və xidmətlərə üstünlük veririk. Şirkət satınalmadan anbar və logistika əməliyyatlarına qədər xidmətləri özündə birləşdirən məsuliyyətli təchizat zənciri qurmağa çalışır. 2020-ci ildə Norm yerli və qlobal miqyasda 518 təchizatçıdan aldığı mal və xidmətlərə təxminən 105 milyon AZN xərcləmişdir. GRI 102-9
2020-ci ildə satınalma prosesində API Spec Q1 sertifikatını almaq üçün tələbləri yerinə yetirərək təchizat zəncirinin idarə edilməsində mühüm irəliləyişlər əldə edilmişdir. Şirkət daxili satınalma qaydalarının beynəlxalq standartlara uyğun olmasına böyük əhəmiyyət verir. Bu istiqamətdə prosedurların, siyasətlərin, proseslərin və qiymətləndirmə blanklarının əsas hissəsi API tələblərinə uyğun olaraq nəzərdən keçirilmiş və yenilənmişdir.

## 12.1. Təchizatçıların idarə edilməsi

Şirkət uğurlu şəkildə idarə olunan təchizat zəncirində təchizatçıların effektiv şəkildə idarə edilməsi və qiymətləndirilməsi mexanizminin tətbiqi istiqamətində davamlı olaraq çalışır. Kateqoriyanın idarə edilməsi satınalma prosesinin müəyyən məhsul kateqoriyasının xüsusiyyətlərinə yönəlməsinə və təchizatçıların qiymətləndirilməsi üçün texniki və keyfiyyətlə bağlı tələblərin standartlaşdırılmasına imkan verir. Əməliyyat bölməsinin strategiyaları prosesi idarə etməklə satınalma prosesinin şəffaflığını artırmağa yönəlmişdir.
Yerli təchizatçıları dəstəkləyərək yerli icmaya müsbət təsir göstərməyə çalışırıq. Bu, yerli iqtisadiyyata da töhfə verməyimizə imkan verir. 2020-ci ildə yerli təchizatçıların payı əvvəlki illə müqayisədə 2% artmış və yerli təchizatçılara xərclənən vəsaitlər ümumi satınalma büdcəsinin 81%-ni təşkil etmişdir. Ümumiyyətlə, təchizatçı keyfiyyət tələblərinə əməl edirsə, yerli təchizatçılarımızla davamlı olaraq əməkdaşlıq etməyə çalışırıq. GRI 102-10 GRI 204-1

Sxem 33. Yerli təchizatçıların payı



# 12. TƏCHİZAT ZƏNCİRİ

## 12.2. Təchizatçı seçimi

Norm-da istehsalın mahiyyətinə görə xammal ehtiyatlarının seçilməsi və qiymətləndirilməsi hazır məhsulların keyfiyyəti üçün vacib amillərdir. Norm yüksək səviyyəli biznes etikasına, keyfiyyətə və istehsalın effektivliyinə sadiq qaldığını nümayiş etdirən şirkətlərlə uzunmüddətli əməkdaşlığa açıqdır.

2020-ci ildə təchizatçıların seçilməsi API standartlarına uyğun şəkildə aparılır və təchizatçıların ədalətli və effektiv şəkildə seçilməsini təmin edən meyarlara əsaslanır. Bu prosesin bir hissəsi olaraq, ümumilikdə 45 ilkin kvalifikasiya forması beş qiymətləndirmə meyarı əsasında təhlil edilib yenilənmişdir. Şirkət təchizatçılar üçün ixtisas tələblərinin siyahısına çirklənmə, emissiya, axıdılan tullantıların azaldılması təşəbbüsləri, enerji və karbon emissiyalarının idarə edilməsi sistemi, ISO standartlarına uyğunluq, ətraf mühitin qorunması və əməyin təhlükəsizliyi üzrə sertifikatların alınması ilə bağlı xüsusi olaraq məlumatlar tələb edərək aşağıdakı meyarları qiymətləndirmə və tələblərə uyğunluğun yoxlanılması prosesinə daxil etmişdir.

Sxem 34 Təchizat zəncirinin qiymətləndirilmə meyarları

| Ümumi məlumat | Maliyyə fəaliyyəti | Keyfiyyətin qiymətləndirilməsi | Sağlamlıq və təhlükəsizlik | Ekoloji Fəaliyyətin İdarə |
|---|---|---|---|---|
| Ünvan, internet səhifəsi və digər zəruri sənədlər daxil olmaqla Şirkət haqqında ümumi məlumat | Satış dövriyyəsi | Keyfiyyətin Qiymətləndirilməsi standartlarına uyğunluq | Peşə sağlamlığı və təhlükəsizliyinin idarə edilməsi sistemi | Ətraf mühitin idarə olunması və bu sahədə ixtisaslaşma |
| | Gəlirlilik və likvidliyin | Müştəri şikayətlərinin idarə edilməsi sistemi | Təhlükəsizlik və fövqəladə hallar üzrə işçilərin | Tullantıların, emissiyaların, çirklənmənin, enerjinin idarə edilməsi sistemi |
| | | Məhsulların keyfiyyətinin qiymətləndirilməsi | | |

Verilmiş ilkin kvalifikasiya faktorlarının təhlili əsasında hər bir təchizatçı dörd kateqoriyanın skorinq sisteminə uyğun olaraq müvafiq bal ilə qiymətləndirilir. Təchizatçılar yalnız ilkin kvalifikasiya formasında bu seçim mərhələsindən keçdikləri halda təchizatçıların siyahısına əlavə olunurlar. Təçhizatçı tələb olunan minimum balı toplaya bilməzsə və ya Norm tərəfindən bildirilən tədbirlər planında müəyyən edilmiş çatışmazlıqları düzəltməzsə, bu tərəflər arasında bağlanan müqaviləyə xitam verilməsi ilə nəticələnə bilər. 2020-ci ildə təchizatçıların effektiv qiymətləndirilməsi sisteminin tətbiqi nəticəsində keyfiyyət qiymətləndirməsi aparılan təchizatçıların ümumi sayı əvvəlki ilə nisbətən 18% artmışdır. Təchizatçıların qiymətləndirilməsi bütün vacib təchizatçılar üçün, habelə vacib təchizatçı olaraq qeyd edilməyən, lakin təchizat prosesində böyük əhəmiyyətə malik olan və son ildə qiymətləndirilməli olan digər şirkətlər üçün aparılır. GRI 308-1

**110**
Keyfiyyətə görə qiymətləndirilən təchizatçıların sayı





# 12. TƏCHİZAT ZƏNCİRİ

Təchizatçıların özləri tələb olunan ilkin kvalifikasiya formalarını doldururlar. Təqdim olunan məlumatlar Norm-un tələb etdiyi meyarlara tam şəkildə uyğun deyilsə, təchizatçı əlavə məlumatlar, dəlillər və ya lazımi sənədləri təqdim edə bilər. Şirkət potensial və mövcud vacib təchizatçıların auditini həyata keçirə bilər. Səyyar yoxlamanın aparılması qərarı satınalma prosesinin bir hissəsi olaraq və ya Şirkətin ilkin kvalifikasiya qiymətləndirməsinin nəticəsi əsasında verilə bilər.

**Sənədlərin auditi**

İxtisas tələblərinə uyğunluğu təsdiq etmək məqsədilə satınalma üçün təqdim edilən sənədlərin, məlumatların, dəlillərin ehtiyat nüsxələrinin bir hissəsi olaraq nəzərdən keçirilməsi

**Səyyar yoxlama**

Materialların və malların təchizatının Şirkətin ixtisas tələblərinə uyğun olub-olmaması proseslərinin texniki yoxlaması

Audit nəticələri təchizatçıların zəif tərəflərini müəyyənləşdirməyə və proseslərini optimallaşdırmağa kömək edir, bu da onların idarəetmə sistemlərinin sertifikatlaşdırılmasına yardımçı olur.

*Gələcəyə baxış*

2021-ci ildə Şirkətin onlayn platformalarından istifadə edərək təchizatçıların effektiv şəkildə seçilməsi və tender proseslərini genişləndirməyə davam etməyi planlaşdırırıq. Norm-un strateji prioritetlərindən biri satınalma prosesinin avtomatlaşdırılmasıdır. Şirkət hal-hazırda SAP avtomatlaşdırılmış platforması vasitəsilə əksər satınalma əməliyyatlarını və təchizatçı münasibətlərinin idarə edilməsini həyata keçirir və e-Satınalma avtomatlaşdırma layihəsini tətbiq edir. Təchizat zəncirində şəffaflığı və dayanıqlılığı təmin etmək üçün rəqəmsallaşdırma səbəbilə yaranan fürsətlərdən davamlı olaraq yararlanacağıq.






# FƏALİYYƏT CƏDVƏLLƏRİ

# 13

13.1. ŞİRKƏT HAQQINDA
13.2. MALİYYƏ NƏTİCƏLƏRİ
13.3. İNSAN RESURSLARIMIZ
13.4. SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK
13.5. ƏTRAF MÜHİT
13.6. MƏSULİYYƏTLİ İSTEHSAL
13.7. TƏCHİZAT ZƏNCİRİ

# 13. FƏALİYYƏT CƏDVƏLLƏRİ

## 13.1. Şirkət haqqında

| Klinker və sement istehsalı (Tonlarla) | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Klinker istehsalı | 1,172,414 | 1,219,360 | 1,469,832 |
| Sement istehsalı, o cümlədən: | 1,302,438 | 1,367,734 | 1,420,540 |
| Klass A | 448,394 | 519,996 | 587,134 |
| Klass B | 303,817 | 311,475 | 362,946 |
| Klass C500 | 522,852 | 492,472 | 430,883 |
| Klass S | 27,374 | 25,657 | 24,199 |
| Klass 1 | - | 18,134 | 10,291 |
| Klass L | - | - | 5,087 |

## 13.2. Maliyyə nəticələri

| İqtisadi fəaliyyət, min AZN | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Əldə edilmiş birbaşa iqtisadi dəyər | 149,447 | 149,210 | 156,327 |
| Gəlirlər | 149,447 | 149,210 | 156,327 |
| Paylanmış iqtisadi dəyər | 114,641 | 119,123 | 129,713 |
| Əməliyyat xərcləri | 77,710 | 83,669 | 87,722 |
| Sosial xərclər | 258 | 299 | 2,327 |
| Əmək haqqı, bonuslar və işçilərə digər ödəmələr | 9,566 | 10,851 | 15,202 |
| Dövlət büdcəsinə ödənişlər, o cümlədən | 28,875 | 26,883 | 24,462 |
| Əmlak vergisi | 1,506 | 1,095 | 815 |
| Ödəmə mənbəyində tutulan vergi | 193 | 422 | 634 |
| Torpaq vergisi | 193 | 198 | 245 |
| ƏDV xərcləri | 14,977 | 12,253 | 10,407 |
| 22% DSMF-ə ödəmələr | 1,716 | 1,457 | 821 |
| Mənfəət vergisi | 8,522 | 8,879 | 8,162 |
| Gömrük rüsumu[1] | 1,768 | 2,580 | 3,378 |
| Bölüşdürülməmiş iqtisadi dəyər | 34,806 | 30,087 | 26,614 |
| Cəmi aktiv | 228,341 | 288,696 | 269,131 |
| Cəmi kapitalizasiya | 228,341 | 288,696 | 269,131 |
| Cəmi kapital | 180,025 | 210,113 | 220,227 |
| Cəmi öhdəlik | 48,316 | 78,583 | 48,904 |

*Hesabat ili üçün "Gömrük rüsumu" ödənişləri "Hökumətə ödənişlər" kateqoriyasında ayrı şəkildə açıqlanmışdır. Göstəricilərin açıqlanmasında edilən dəyişikliklər nəticəsində 2018 və 2019-cu maliyyə ilində bəzi rəqəmlərdə dəyişikliklər müşahidə olunur.



Dayanıqlı inkişaf haqqında hesabat

13. FƏALİYYƏT CƏDVƏLLƏRİ

## 13.3. İnsan resurslarımız

| Cinsə görə işçilərin cəmi sayı | 2018 Kişi | 2018 Qadın | 2019 Kişi | 2019 Qadın | 2020 Kişi | 2020 Qadın |
|---|---|---|---|---|---|---|
| Əmək müqaviləsi üzrə işçilərin cəmi sayı | 260 | 28 | 261 | 28 | 263 | 30 |
| Yarım ştat işçilərin sayı | 2 | 0 | 3 | 0 | 4 | 0 |
| Tam ştat işçilərin sayı | 258 | 28 | 258 | 28 | 259 | 30 |
| Əmək müqaviləsinin növü üzrə işçilərin cəmi sayı | 260 | 28 | 261 | 28 | 263 | 30 |
| Daimi işçilərin sayı | 212 | 23 | 227 | 22 | 229 | 24 |
| Müvəqqəti işçilərin sayı | 48 | 5 | 34 | 6 | 34 | 6 |
| Tutduğu vəzifəyə görə işçilərin cəmi sayı | 260 | 28 | 261 | 28 | 263 | 30 |
| Yuxarı vəzifələr | 19 | 1 | 18 | 1 | 24 | 1 |
| Mütəxəssislər | 50 | 17 | 44 | 21 | 54 | 19 |
| Texniki vəzifələr | 25 | 8 | 32 | 4 | 25 | 5 |
| Digər | 166 | 2 | 167 | 2 | 160 | 5 |

| Yaş üzrə göstəricilər | 2018 | | | 2019 | | | 2020 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 30 yaşından aşağı | 30-50 yaş arasında | 50 yaşından yuxarı | 30 yaşından aşağı | 30-50 yaş arasında | 50 yaşından yuxarı | 30 yaşında aşağı | 30-50 yaş arasında | 50 yaşından yuxarı |
